## Günün sözü

**Prezident İlham Əliyev:**

Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

## Bütün yollar Bakıya aparır...



Səhifə ⇨ 4



Səhifə ⇨ 7

## Üstümüzə Kolonna gəlir


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 77 (30193) 14 aprel 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Bosniya və Herseqovina ilə tərəfdaşlıq strateji səviyyəyə yüksəldi

## Sarayevo Beynəlxalq Hava Limanında qarşılanma



**Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sarayevo şəhərinin Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bosniya və Herseqovinanın xarici ticarət və iqtisadi əlaqələr naziri Staşa Koşarats və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Rəsmi qarşılanma mərasimi



**Bosniya və Herseqovinada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 13-də Sarayevo şəhərinin Musala meydanında rəsmi qarşılanma mərasimi keçirilib.**

Azərbaycanın və Bosniya və Herseqovinanın dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.



Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Bosniya və Herseqovinanın dövlət himnləri səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Bosniya və Herseqovinanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviçə təqdim edildi.

*AZƏRTAC*

## Yengicə su anbarı Azərbaycanın su təchizatına önəmli töhfədir



Səhifə ⇨ 9

## Suqovuşanın fatehləri



Səhifə ⇨ 6

# KTMT-yə olar, Avropa İttifaqına yox?!

Səhifə ⇨ 4

### Paşinyan: "Bu tələdən çıxacağımızı düşünürdük, amma..."



Səhifə ⇨ 7

### Naxçıvan "yaşıl enerji" dəhlizinə çevrilir

Səhifə ⇨ 8

### Əsirə işgəncə vermək də erməni xislətidir

Səhifə ⇨ 7

### Ekofəalların mübarizliyi düşməni sarsıdıb



Səhifə ⇨ 4

### Sızdırılmış sənədlər Ukraynanın əks-hücumunu poza bilərmi?



Səhifə ⇨ 10

### Nə tədbir görülür, nə də cavab verilir



Səhifə ⇨ 6

### Makronun pensiya islahatı Fransanı qarışdırıb

Səhifə ⇨ 10

# Azərbaycan Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və üzvləri ilə görüşü



**Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə görüşü olub. Əvvəlcə rəsmi foto çəkdirildi.**

***AZƏRTAC***

# Strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb



**Aprelin 13-də Sarayevoda "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb.**

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç imzaladılar.

***AZƏRTAC***



# Geniş tərkibdə görüş

**Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə geniş tərkibdə görüşü olub.**

Görüşdə Azərbaycanın Bosniya və Herseqovinanın dostu olduğunu deyən Jelka Tsviyanoviç, Jelko Komşiç və Denis Beçiroviç dövlətimizin başçısının Bosniya və Herseqovinaya daim dostluq münasibəti göstərməsini yüksək qiymətləndirdilər. Xüsusilə Azərbaycanın 2014-cü ildə Bosniya və Herseqovinada baş vermiş daşqınların fəsadlarının aradan qaldırılmasında və COVID-19-a qarşı mübarizədə göstərdiyi maddi və humanitar dəstəyi vurğulayaraq, ölkəmizin Bosniya və Herseqovinada humanitar infrastruktur xarakterli bir sıra layihələrin həyata keçirməsini, o cümlədən gözdən əlil və ahıl insanlar üçün mərkəzlərin təmirini çox yüksək qiymətləndirdilər.

Jelka Tsviyanoviç, Jelko Komşiç və Denis Beçiroviç dövlətimizin başçısının bu səfərinin ölkələrimiz arasında tərəfdaşlığın inkişafında yeni səhifə açacağına və əlaqələrimizin daha da inkişafına ciddi töhfə verəcəyinə əminliklərini bildirdilər. Səfər çərçivəsində həm ikitərəfli gündəlikdə duran məsələlərə, həm də beynəlxalq məsələlərə dair ətraflı fikir mübadiləsinin aparılacağı vurğulandı.

Azərbaycanla Bosniya və Herseqovina arasında siyasi münasibətlərin mükəmməl səviyyədə olduğu, ölkələrimizin bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi xüsusi qeyd edildi. Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin açılmasının əlaqələrimizin inkişafında mühüm rol oynadığı bildirildi və Bosniya və Herseqovinanın da tezliklə Azərbaycanda səfirlik açmaq niyyətində olduğu qeyd edildi. Bosniya və Herseqovinanın Azərbaycan vətəndaşları üçün viza rejimini aradan qaldırdığı və bu istiqamətdə Azərbaycan tərəfindən də müvafiq addımların atılacağı vurğulandı.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və üzvləri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilən qətliamın heç zaman unudulmamasının vacibliyinə toxundular, Bosniya və Herseqovinanın tarixi ilə Azərbaycanın tarixində bənzər hadisələrin olduğunu qeyd etdilər.

1972-ci ildə Bakı və Sarayevo şəhərlərinin qardaşlaşması ilə bağlı sazişin imzalandığını xatırladan Prezident İlham Əliyev bu şəhərlər arasında münasibətlərin qardaşlıq zəminində inkişaf etdiyini dedi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanla Bosniya və Herseqovina arasında imzalanacaq strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə qaldıracaq.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin daim çox yaxşı səviyyədə olduğunu, ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərdiklərini vurğuladı, Azərbaycan torpaqlarının işğal altında olduğu müddətdə də Bosniya və Herseqovinanın həmişə ərazi bütövlüyümüzə və suverenliyimizə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi. Azərbaycanın Bosniya və Herseqovinanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəklədiyini diqqətə çatdıran dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi zamanı da Bosniya və Herseqovinanın Azərbaycana göstərdiyi siyasi dəstəyin təqdir olunduğunu dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Bosniya və Herseqovina arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, enerji, investisiyalar, nəqliyyat, turizm, mədəniyyət, elm, təhsil sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar var.

Bu xüsusda iki ölkə arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən çıxış edərək hökumətlərarası birgə komissiyanın və müvafiq sahələr üzrə birgə əməkdaşlıq layihələrinin inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılması qərara alındı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan dünyanın bir çox ölkələrində investisiya layihələri ilə çıxış edib və bu xüsusda Bosniya və Herseqovinada da müxtəlif investisiya layihələrində iştirak edə bilər.

Azərbaycanın təbii qazının Balkan regionu və Bosniya və Herseqovinanın qonşu ölkələrinə ixrac edildiyi vurğulanaraq, gələcəkdə enerji sahəsində əməkdaşlıq imkanlarının mümkünlüyü qeyd olundu.

Dövlətimizin başçısı bildirdi ki, həm Azərbaycan, həm də Bosniya və Herseqovina çoxkonfessiyalı ölkələrdir. Bu baxımdan da ölkələrimiz arasında təcrübə mübadiləsinin aparılması da yaxşı haldır. Eyni zamanda, ölkələrimizin vətəndaş cəmiyyəti təsisatları, elm-tədqiqat mərkəzləri arasında əməkdaşlıq məsələlərinin vacibliyi də bildirildi.

Azərbaycanın və Bosniya və Herseqovinanın minalardan əziyyət çəkən, minalarla çirklənmiş ölkələr olduğu vurğulanaraq, bu sahədə əməkdaşlığın və təcrübə mübadiləsinin aparılmasının önəmi qeyd edildi.

***AZƏRTAC***

# Prezident İlham Əliyev və Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər



**Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bəyanatla çıxış etdi.**

## Sədr Jelka Tsviyanoviçin bəyanatı

– Hər kəsə təşəkkür edirəm.

Bizim hörmətli qonağımız cənab Prezident İlham Əliyevi salamlayıram. Mən bir aydan bir az çox müddət öncə Bakıda oldum. Orada mənə cənab İlham Əliyev kimi dost tərəfindən isti, mehriban qonaqpərvərlik göstərildi. Orada mən cənab Prezidenti buraya dəvət etdim. Qısa bir zamanda cənab Prezident buraya səfər edib, Bosniya və Herseqovinanın dostu olduğunu sübut edib.

Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq. Bu fürsətdən istifadə edərək, cənab Prezident Əliyevə və ölkənizə 2014-cü ildə bizim ölkədə baş vermiş daşqın zamanı göstərilmiş yardıma görə minnətdarlığımı bildirirəm. Bizim xalqımız böyük çətinliklərlə üzləşmişdi və Azərbaycan o zaman bizim yanımızda oldu, daha sonra koronavirus və pandemiya dövründə də Azərbaycan bizə yardım göstərdi. Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda, Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur. Bu gün bizim imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik. Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda, daha səmərəli iqtisadi əməkdaşlıq edək. Bunun sayəsində biz – işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda, təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq.

Çox şadıq ki, Azərbaycan artıq Bosniya və Herseqovinada səfirliyini açmışdır və mən məmnuniyyətlə qeyd edə bilərəm ki, biz də ölkəmizin Bakıda səfirliyini açmaq qərarına gəlmişik. Biz bunu həyata keçirəcəyik və bu məsələ ilə bağlı da cənab Prezidentə məlumat vermək istəyirəm ki, biz hər üç üzv yekdil qərar verdik ki, Bakıda səfirliyin açılması vacibdir. Bununla bağlı təlimatlarımızı artıq Xarici İşlər Nazirliyinə vermişik və əminəm ki, səfirliyimiz açılan kimi onun bəhrəsini görəcəyik.

Qeyd edim ki, Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, artıq biz indi praktiki əməkdaşlığa başlayırıq. Dünən biz Azərbaycanın iqtisadiyyat naziri və nümayəndə heyəti ilə görüş keçirdik. Bizim Nazirlər Şurasında və işgüzar dairələrdə görüşlər həyata keçirildi ki, biz hansı istiqamətdə əməkdaşlığımızı davam etdirə bilərik. Biz nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik.

Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük.

Cənab Prezident, Sizi burada salamlamaq mənim üçün böyük şərəfdir. Sağ olun ki, mənim dəvətimi qəbul etdiniz. Şadam ki, bu gün biz bu fürsəti əldə etmişik. Burada da əzmimizi ifadə edirik ki, əməkdaşlığımızı davam etdirəcəyik.

Sizə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli xanım Sədr, hörmətli cənab Komşiç, hörmətli cənab Beçiroviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, xanım Sədr, mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Siz qeyd etdiyiniz kimi, biz Sizinlə bir ay yarım bundan əvvəl Bakıda görüşmüşdük. Siz məni ölkənizə dəvət etmişdiniz və mən böyük məmnuniyyətlə bu dəvəti qəbul edib bu gün Sizin ölkənizdəyəm.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında Bosniya və Herseqovina–Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Yəni, bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək.

Əlaqələrimizin tarixi də çox gözəldir. Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev və Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər



*(əvvəli 2-ci səhifədə)*

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq.

Azərbaycan da öz növbəsində bütün məsələlərdə, o cümlədən, Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir.

Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır. O cümlədən, bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir.

Biz müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələr aparacağıq. Eyni zamanda, iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. Birgə komissiya, yəni, Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda, konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq.

Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan sözün əsl mənasında strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.

Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir.

Bununla bərabər, hidroenergetika, eyni zamanda, bərpaolunan digər enerji növləri üzrə birgə araşdırmalar aparılacaq. Əminəm ki, bu istiqamətdə də ciddi addımların atılması mümkün olacaq. **Azərbaycan xarici ölkələrə milyardlarla dollar həcmində sərmayə qoyubdur və əlbəttə ki, Bosniya və Herseqovina ilə bu sahədə əməkdaşlıq bizim üçün çox maraqlıdır.**

Bununla paralel olaraq nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda, digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər.

Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər. Həm Bosniya və Herseqovina, həm Azərbaycan çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Mən bir daha bu dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Bir məqamı da qeyd etməliyəm ki, 1972-ci ildə - hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. O vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Əminəm ki, bu səfərdən sonra bizim qardaşlığımız daha möhkəm olacaq. Sağ olun.

***AZƏRTAC***

# Ermənistanın son iddiaları qəbuledilməzdir

**Ermənistanın baş naziri Nikol Paşinyanın aprelin 13-də hökumət iclasında çıxışı zamanı Laçın istiqamətində baş vermiş son təxribatda məsuliyyəti Azərbaycan tərəfinin üzərinə atması, Azərbaycanı Praqa və Soçi görüşləri çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmaqda təqsirləndirməsi tamamilə əsassızdır və qəbuledilməzdir.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın səsləndirdiyi iddiaları şərh edərkən bildirib.

O deyib: “Avropa İttifaqının bir gün əvvəlki bəyanatına istinad edən baş nazirin delimitasiya üçün 1991-ci il sərhəd xəttinin əsas götürülməsi ideyasını təkrarlaması bir sıra qərəzli məqamları ehtiva edir. Belə ki, Ermənistan baş nazirinə xatırlatmaq istərdik ki, Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan işğal siyasəti nəticəsində, 1990-cı ildə Kərki və Bağanis Ayrım kəndləri Ermənistan tərəfindən işğal edilib. Bununla yanaşı, Ermənistanın üçtərəfli Bəyanata zidd olaraq, Azərbaycan ərazilərindən hələ də erməni silahlı qüvvələrini çıxırmaması, 8 Azərbaycan kəndini işğal altında saxlaması məlumdur. Bu xüsusda, baş nazir ilk öncə 1991-ci il sərhədləri dedikdə nə



nəzərdə tutulduğu məsələsinə aydınlıq gətirməlidir.

Ermənistan tərəfindən əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara geri qayıtmağı, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik”.

XİN-in sözçüsü sonra qeyd edib ki, Ermənistanın Azərbaycanda həyata keçirdiyi təxribatlara və qeyri-qanuni fəaliyyətlərə son qoymaq məqsədilə Laçın yolunun başlanğıcında sərhəd nəzarət-keçid məntəqəsinin yaradılması barədə Azərbaycanın təklifinə müsbət cavab vermək əvəzinə, qarşı tərəf Beynəlxalq Ədalət Məhkəməsinin Laçın yolu ilə bağlı qərarını da təhrif etməkdən çəkinmir. Ermənistan tərəfini əsassız bəyanatlar vermək əvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara geri qayıtmağı, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik.

***“Xalq qəzeti”***

# Hərbi əsirlərə qarşı vəhşilik beynəlxalq cinayətdir

**Bu günlərdə Ermənistanda əsir düşmüş Azərbaycan hərbçisinə işgəncə verilməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 115.2-ci (əsir düşmüş şəxslərə işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə) maddəsi ilə iş başlanıb.**

Bu barədə qurumun yaydığı məlumatda deyilir ki, bəzi media və sosial şəbəkə səhifələrində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlunun Ermənistan Respublikası ərazisində əsir düşməsinə və əlləri bağlı şəkildə açıq-aydın işgəncəyə məruz qalmasına dair videogörüntülər yayılıb.

Məlumatda daha sonra bildirilir ki, Baş Prokurorluq Azərbaycan vətəndaşlarına qarşı qanunsuz əməllərə yol verən şəxslərin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilməsi məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və həmin şəxslərin cəzalandırılması üçün beynəlxalq təşkilatlarla əməkdaşlığı təmin edəcək. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

***

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda isə bildirilir ki, qurum əsgər Hüseyn Axundova qarşı ağır işgəncələrin verilməsini 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının kobud şəkildə pozulması faktı kimi qiymətləndirərək qarşı tərəfin insanlığa sığmayan bu cür amansızlığını qətiyyətlə pisləyir və əsir düşmüş şəxslərlə beynəlxalq humanitar hüquq normalarına uyğun davranılmasını tələb edir.

Məlumatda Dövlət Komissiyasının əsgərlərimizin həyat və sağlamlığına qarşı yönəlmiş belə halların aradan qaldırılması və onların tezliklə azad edilməsi üçün aidiyyəti beynəlxalq təşkilatlara rəsmi qaydada müraciətlər ünvanlanaraq təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə çağırış da əksini tapıb.

***

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Səbinə Əliyeva hərbi qulluqçumuza qarşı qeyri-insani rəftar göstərilməsi faktı ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. Müvəkkil onları baş vermiş vəhşiliyə reaksiya verməyə və Ermənistanı götürdüyü öhdəliyi yerinə yetirməyə çağırmağa dəvət edib.

Müraciətdə daha sonra qeyd olunub: “Eyni zamanda, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Ermənistandakı nümayəndəliyindən təcili olaraq həmin hərbi qulluqçularımıza baş çəkilməsini və onların vəziyyəti ilə bağlı məlumatların verilməsini tələb edirəm”.

***

Qərbi Azərbaycan İcması Azərbaycan Ordusunun silahsız əsgərinə ermənilərin işgəncə verməsi ilə bağlı bəyanat yayıb.

Qərbi Azərbaycan İcması bu mənfur cinayəti qəti şəkildə qınayır, beynəlxalq ictimaiyyəti buna görə Ermənistan hökumətinin və cinayətin icraçılarının əməlinə hüquqi qiymət verməyə və əlverişsiz hava şəraiti ilə əlaqədar yolu azaraq Ermənistanın nəzarətində olan əraziyə keçmiş azərbaycanlı hərbi qulluqçuların dərhal və qeyd-şərtsiz azad edilməsini təmin etməyə çağırır.

***“Xalq qəzeti”***

# Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib



**Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Bosniya və Herseqovinanın Rəyasət Heyəti tərəfindən rəsmi nahar verilib.**

Nahardan sonra Prezident İlham Əliyevə xizək hədiyyə edildi.

Bildirildi ki, tamamilə əl işi olan bu xizəyin orijinalını 1984-cü ildə Sarayevoda keçirilmiş Qış Olimpiya Oyunları zamanı bosniya və herseqovinalı idmançı istifadə edib. Bu hədiyyə məxsusi olaraq Prezident İlham Əliyev üçün hazırlanıb.

***AZƏRTAC***

# Rəsmi səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinaya rəsmi səfəri aprelin 13-də başa çatıb.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sarayevo şəhərinin Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Azərbaycan–Rusiya: parlamentlərarası əlaqələr genişlənir



**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində aprelin 13-də bu ölkənin Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb. MDB Parlamentlərarası Assambleyasının 55-ci plenar iclası çərçivəsində baş tutan görüşdə qeyd olunub ki, bu gün parlamentlərarası əməkdaşlıq MDB-yə üzv olan ölkələr arasında əlaqələrin daha da genişləndirilməsi üçün effektiv mexanizmə çevrilib. Parlament Assambleyası bu prosesdə vacib rol oynayır.**

Qeyd edilib ki, ötən il Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub. Azərbaycan və Rusiyanın dövlət başçıları tərəfindən müəyyən olunan və münasibətlərimizin dərinləşdirilməsinə xidmət edən gündəliyə əsasən, ölkələrimiz arasında münasibətlər mehriban qonşuluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir.

Ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının mühüm rolu xüsusi vurğulanaraq, qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanan “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında” Bəyannamə əlaqələrimizdə yeni mərhələnin əsasını qoyub. Həmçinin vurğulanıb ki, ölkələrimiz arasında iqtisadiyyat sahəsində, o cümlədən, qarşılıqlı investisiya qoyuluşunda qeydə alınan göstəricilər uğurludur. Humanitar sahədə əlaqələr də əməkdaşlıqda mühüm bir istiqaməti təşkil edir.

Bildirilib ki, bu il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olur. Valentina Matviyenko deyib ki, Heydər Əliyevin əziz xatirəsi Rusiyada da hörmətlə anılır. Bu məqsədlə Rusiya Federasiyasında bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Görüşdə tərəflər iki ölkə arasında əlaqələrin inkişafında qanunverici orqanların özünəməxsus rolunu da qeyd ediblər. Bu sahədə həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin ikitərəfli parlamentlərarası komissiyanın işi təqdirəlayiq olduğu diqqətə çatdırılıb. S. Qafarovanın cari ilin fevral ayında Rusiya Federasiyasına rəsmi səfəri və səfər zamanı imzalanan “Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun ikitərəfli münasibətlərimizin inkişafına töhfə verdiyi diqqətə çatdırılıb.

Azərbaycan parlamentinin Sədri bildirib ki, Ermənistan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq, hələ də öz qoşunlarını Azərbaycan ərazilərindən çıxarmayıb. Laçın yolundan hərbi məqsədlər və qeyri-qanuni istismar etdiyi təbii sərvətlərimizin daşınması üçün istifadə edir. Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın yolunda dinc aksiyası Ermənistanın bu qeyri-qanuni əməllərinə etiraz olaraq keçirilir. Lakin Ermənistan, guya, Laçın yolunun bağlanmasına dair yalan iddialarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Ermənistan Avropa İttifaqının missiyasının bu ölkədə olmasından istifadə edərək, vəziyyəti gərginləşdirən addımlar atır və hərbi təxribatlara yol verir.

Görüşdə Ermənistanın bu il aprelin 11-də törətdiyi hərbi təxribat barədə də məlumat verilib. Qeyd edilib ki, bu kimi təxribatların beynəlxalq ictimaiyyət tərəfindən sülh sazişi üzrə danışıqlara ciddi çağırışlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. S. Qafarovanın sözlərinə görə, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq, Azərbaycana qarşı apardığı təxribatlar nəinki Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini pozur, eyni zamanda, regional sülh və təhlükəsizliyi ciddi şəkildə təhdid edir. Ona görə də Ermənistanın bu addımları qətiyyətlə qınanılmalıdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***Əliqismət BƏDƏLOV, “Xalq qəzeti”***

# KTMT-yə olar, Avropa İttifaqına yox?!

## Yaxud müşahidə missiyası məsələsində siyasi riyakarlıq




**Əgər yadınızdadırsa, ötən il Avropa İttifaqının Azərbaycan–Ermənistan sərhədinin Ermənistan hissəsinə mülki missiya göndərmək məsələsi meydana çıxanda, Rusiya buna qarşı kifayət qədər sərt yanaşmışdı. O vaxt ölkənin Xarici işlər naziri Sergey Lavrov məsələ ilə bağlı açıqlamalarının birində bildirmişdi ki, Aİ müşahidəçiləri Cənubi Qafqaz regionunda əlavə qıcıqlandırıcılar olacaq. Bir neçə gün öncə qurumun rəsmi nümayəndəsi Mariya Zaxarova isə keçirdiyi ənənəvi brifinqdə aprelin 11-də Azərbaycan və Ermənistan hərbçiləri arasında baş vermiş insidentə, daha doğrusu, ikincilərin təxribat əməlinə münasibət bildirərkən, sanki, aylar öncə Lavrovun dediklərinin düz çıxdığına eyham vurmuş, amiranə tərzdə demişdi ki, ölkəsi vəziyyətin belə şəkil alacağını proqnozlaşdırırdı. Xanım Zaxarovanın sözləri qanlı hərbi qarşıdurmaya görə kənar qüvvələri günahlandırmaq istəyi kimi də xarakterizə edilə bilər. Belə nəticəyə gəlmək mümkündür ki, Rusiya XİN başçısının təbirincə desək, qıcıqlandırıcılar öz "işlərini" görüblər.**

***

Daha bir məqamı yada salaq. Lavrov aylar öncəki açıqlamasında Aİ missiyasının regionda peyda olması reallığına qarşı çıxaraq, belə bir fikir də işlətmişdi ki, qurum münaqişə zonasına mülki missiya göndərirsə, bunu qarşı duran tərəflərin hər biri ilə müzakirə edib, qərarı ondan sonra verməlidir. Məlum olduğu kimi, Aİ-nin mülki missiyası ilə bağlı məsələ ötən ilin oktyabrında Azərbaycan və Ermənistan liderlərinin, Aİ Şurasının prezidenti Şarl Mişelin və Fransa Prezidenti Emmanuel Makronun iştirak etdiyi Praqa sammiti zamanı gündəmə gəlmişdi. Həmin vaxt ölkəmizin Prezidenti İlham Əliyev sözügedən missiyanın sərhədin Azərbaycan tərəfində fəaliyyətini rədd etmişdi. Ancaq onun Ermənistan tərəfdə olmasına etiraz bildirməmişdi. Ona görə ki, prinsipcə, etirazın mənası yox idi. Onsuz da həmin missiya gələcəkdi. Əsas olan Ermənistanın onun köməyi ilə yaratmaq istədiyi reallıqlara qarşı alternativ qoymaqdır ki, bunu da dövlətimizin başçısı, kifayət qədər, ustalıqla reallaşdırmağı bacardı. Hazırda Aİ missiyasının varlığı ilə yoxluğu bilinmir. Deməli, müşahidəçilik özünü doğrultmadı.

Bəli, hazırda Ermənistanın üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının Azərbaycan–Ermənistan sərhədində yerləşdirilməsi üzərində iş gedir. Hər halda, yaranmış təəssürat bunu söyləməyə əsas verməkdədir. Moskva mövcud istiqamətdə canfəşanlıq etsə də, İrəvanın, məsələnin mümkünlüyü görüntüsünü yaratmasına rəğmən, ehtiyatlı davrandığı və tələsmədiyi aşkardır.

Məlumdur ki, bu, Ermənistan üçün növbəti manipulyasiya predmetidir. Ölkənin baş naziri Nikol Paşinyan daha çox, Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya prezidenti Vladimir Putinin həbsini nəzərdə tutan Roma Statutunun Konstitusiyaya uyğunluğuna dair Ermənistan konstitusiya məhkəməsinin verdiyi qərarla bağlı, Moskvanın siyasi dairələrində qalxmış ajiotajı zəiflətmək istəyir. Bu məqamın üzərində dayanaraq, haşiyə çıxaq ki, hazırda Paşinyan hakimiyyəti "aşağı baxırsan saqqal, yuxarı baxırsan bığ" dilemması ilə baş-başadır. Axı, sözügedən qərarın Ermənistanın Milli Assambleyası tərəfindən ratifikasiyası üçün 3 aylıq müddət nəzərdə tutulub. Parlamentin qərarı təsdiqləməsi Moskva ilə münasibətlərin son dərəcə kəskin xarakter alması deməkdir. Buna gedilməməsini isə Qərb dairələri Nikolun etibarsızlığı kimi qiymətləndirəcəklər. Məhz belə bir məqamda KTMT missiyası ilə bağlı məsələnin gündəmə gətirilməsi, Rusiyanın könlünü almaq və qarşıdakı üç ay müddətində vəziyyəti izləmək, vaxt udmaq məramına söykənib. Hərçənd, rəsmi İrəvanın gələcək üçün də hər hansı proqnozu yoxdur. Hərəkətləri, necə deyərlər, Allahın ümidinədir.

Əlbəttə, Ermənistan KTMT missiyasının gəlişi üçün şərtlər qoyur. Tələb edir ki, qurum ötən ilin sentyabrında Azərbaycan–Ermənistan sərhədində yaşananları birincinin təcavüzü kimi qiymətləndirib məsələyə siyasi qiymət versin. Halbuki, belə bir tələb 2022-ci ilin noyabrında KTMT-nin İrəvan sammiti zamanı yerinə yetirilməmişdi. İndi də bunun mümkünlüyü şübhə doğurmaqdadır. Hər bir halda, Rusiyanın çox ciddi şəkildə Ermənistanda KTMT missiyasının yerləşdirilməsinə maraq göstərdiyi ortadadır. Hərçənd, əvvəllər belə bir maraq istisna idi. Hətta, Paşinyan Qazaxıstan nümunəsini, yəni rəsmi Astananın çağırışı ilə KTMT qüvvələrinin ölkəyə gəlməsini misal çəkərək, qurumu ikili standartlarda günahlandırmışdı.

Burada əsas məqam Rusiyanın yanaşmasıdır. Elə ona görə əvvəldə Lavrovun, Aİ missiyasının bölgəyə gəlməsinə, münasibətindən söz açdıq. Sual yaranır: necə olur ki, Avropa missiyasının münaqişə zonasına təşrif buyurması Azərbaycan–Ermənistan normallaşması baxımından ziyanlı sayılır, ancaq KTMT missiyasının gəlişi yox? Nə üçün Lavrov ötən il Aİ-nin mülki missiyasının Azərbaycan–Ermənistan sərhədinin Ermənistan hissəsindəki fəaliyyətinin Bakı ilə razılaşdırılmamasını, yəni çox güman, ölkəmizin həmin missiyanın sərhədin özünə məxsus tərəfində olmasına razılıq verməməsini əsas gətirib müşahidənin legitimliyini şübhə altına alırdı? Hazırda niyə KTMT missiyası ilə əlaqədar məsələnin Azərbaycanla müzakirəsini ağlından keçirmir? Nəinki Lavrov, Rusiyanın xarici siyasətindəki heç kəs bundan danışmır. Deməli, Aİ müşahidəçiləri əlavə qıcıqlandırıcılardır, amma KTMT-nin hərbçilərinə bu baxımdan yanaşmaq olmaz? Əlbəttə, Rusiya deyə bilər ki, Ermənistan KTMT-nin üzvüdür. Ancaq bu arqument yetərli deyil.

Birincisi, qətiyyətlə demək mümkündür ki, hazırkı situasiyada Aİ-nin müşahidə missiyası kimi, KTMT-nin də regiondakı perspektiv varlığı əlavə qıcıqlandırıcılar effekti yaradacaq. Nəzərə alaq ki, Aİ-nin səssiz, Azərbaycanla müxtəlif sahələrdəki ciddi əməkdaşlıq səbəbindən neytrallaşmış duruma düşmüş missiyasından fərqli olaraq, KTMT sakit qala bilməyəcək. Qurum bölgəyə gəlsə, Ermənistan hakimiyyəti onu öz təxribatlarına alət etməyə çalışacaq. Deməli, obyektivliyin qorunması qeyri-mümkün olacaq.

Digər tərəfdən, nəzərə alsaq ki, Qərbin əli ilə hərəkətə gələn İrəvan Moskvaya münasibətdə səmimi deyil, KTMT missiyasının regionda səmərəsizliyi qeydə alınsa, daha doğrusu, rəsmi İrəvanın gözlədiyi tərzdə Azərbaycana münasibətdə təxribatçı mövqeyi nəzərə çarpmasa, bu, həm qurumun, həm də elə Rusiyanın Ermənistanda iflası reallığını doğuracaq. Tam mümkündür ki, Paşinyan administrasiyası üçün KTMT-nin bölgəyə mümkün gəlişinə Rusiya kitabını tamamilə bağlamaq üçün şans olaraq yanaşır. Bəlkə, Nikol təşkilat üçün Yerablur panteonunda qəbir də hazırlatdırıb...

Yox əgər, KTMT münaqişə zonasında sırf Ermənistanın tərəfində Azərbaycana qarşı çıxacaqsa, bu zaman da ciddi problemlərin yaranacağı qaçılmazdır. Nəzərə alaq ki, qurumda təmsil olunan bir çox ölkələrin Azərbaycanla münasibətləri yüksək səviyyədədir. Heç bir halda Qazaxıstanın, Qırğızıstanın, elə Belarusun özünün Azərbaycan əsgərinə güllə atacaq hərbçi verməsi mümkün deyil. Deməli, KTMT patronajlığı ilə Ermənistana yalnız rus əsgəri gələ bilər. Bu halda təşkilatın qeyri-ciddiliyi, Moskvanın əlində oyuncaq olduğu tam şəkildə üzə çıxacaq. Belə bir perspektiv Rusiyaya lazımdırsa, buyursun!

Başqa bir məqama diqqət yetirək. İndiyədək KTMT-yə daxil olan müxtəlif dövlətlərin rəsmiləri dəfələrlə bildiriblər ki, qurum regional konfliktlərə qarışmır. Böyük anlamda götürsək, məsələ məhz bu formada qoyulmalıdır – ortada üzv dövlətlərin hansınasa ciddi və aşkar intervensiya faktı yoxdur. Ermənistanın avantürizmi isə hər kəsə yaxşı məlumdur. KTMT-nin ötən ilki İrəvan sammiti zamanı Belarus Prezidenti Aleksandr Lukaşenkonun, əsəbi formada, Paşinyana, təxminən, "bizi uşaq yerinə qoyma, hər şeyi gözəl bilirik" şəklində söz qaytarmasını yada salaq...

Həqiqətən də, KTMT-yə üzv dövlətlərin başçıları ciddi şəxslərdir, hər biri kifayət qədər nüfuzlu liderdir. Dünyanın işlərini də gözəl bilirlər. Məsələn, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev. Bir neçə gün öncə, o, Astanada Azərbaycan Prezidenti İlham Əliyevlə birgə mətbuata bəyanatında Orta dəhlizin ölkəsi üçün əhəmiyyətini vurğulamışdı. Ermənistan isə hazırda özünün ambisiyaları ilə, böyük ölçüdə, həmin dəhlizin reallaşmasına qarşı çıxır. Bunu necə, hamı dərk edir, Rusiya yox?!

***

Əlbəttə, Moskva hər şeyin fərqindədir. Sadəcə, onun Cənubi Qafqaz müstəvisində hər hansı tutarlı istinadgahı, necə deyərlər, yapışacaq yeri yoxdur. Ölkə çəmbərin daraldığını görür. Nəzərə alaq ki, Rusiyanın hazırkı, belə demək mümkünsə, missiya aktivliyi onun Qarabağda Ruben Vardanyanın şəxsində separatçılıq layihəsi iflasa uğradıqdan sonra meydana çıxmış reallıqdır. Çox güman, Moskvada düşünürlər ki, KTMT-dəki digər ölkələr bu aktivliyi anlayışla qarşılayacaq, haqq işi kimi qiymətləndirəcəklər. Ola bilər, Azərbaycandan da bu anlayışı gözləyirlər. Əks halda, Kreml Lavrovun ötən il söylədiyi ilə onun hazırkı mövqeyinin ziddiyyət təşkil etdiyini düşünər, ən azı, Azərbaycana qarşı riyakarlıq sayıldığının fərqinə varardı.

Hər bir halda, nəticə dəyişmir. Bir daha bildirək: Aİ-nin Cənubi Qafqazdakı missiyası bölgədə qıcıqlandırıcı faktordursa, KTMT-nin missiyası da eyni ampluadadır. Hələ bir qədər də qabarıq formada. Ermənistanın təxribatçı mövqeyini, Azərbaycanla sülhə gəlmək istəməməsi reallığını nəzərə alsaq, təşkilatın regionda görünməsi İrəvan üçün növbəti manipulyasiya vasitəsidir. Bu isə Cənubi Qafqazda sabitlik və əmin-amanlıq üçün təhdiddir. Yaxşı olar ki, Rusiya bunu da düşünərək, Ermənistanın nazı ilə oynayıb siyasi acizlikdən uzaq dursun, bir sözlə, özünün mənasız erməni sevdasından əl çəksin.

*Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"*

# Bütün yollar Bakıya aparır...

## Qarabağdakı ermənilərin nicatı Azərbaycana reinteqrasiyadadır

**Qarabağ münaqişəsi artıq tarixdir. 44 günlük müharibədə 30 illik erməni işğalına son qoymaqla Azərbaycan regionu təhlükədən azad etdi. Sonrakı mərhələ Qarabağda yaşayan erməni mənşəli sakinlərin Azərbaycanın hüquqi məkanına inteqrasiyasıdır.**



Prezident İlham Əliyev bildirir ki, Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır. Ancaq Azərbaycanın bu məsələdə konstruktiv mövqe sərgiləməsinə baxmayaraq, Qarabağdakı qondarma qurumun nümayəndələri reallığa uyğun olmayan tələblər irəli sürürlər.

Heç kimə sirr deyil ki, Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan ərazidə yaşayan ermənilər çox ağır mənəvi, psixoloji və sosial-iqtisadi vəziyyətlə üzləşiblər. Çətin sosial və maddi şərait, gələcəklə bağlı ümidsizlik onları çıxış yolları axtarmağa vadar edir. Müharibənin başa çatmasından ötən müddət ərzində normal yaşayış üçün zəruri olan iqtisadi infrastruktur bərpa olunmur, tibbi xidmətin göstərilməsi üçün müvafiq sistem yoxdur, mənzil-təmir sektoru iflasın astanasındadır. Əslində, müharibədən əvvəl də Qarabağın kriminal işğal rejiminin nəzarətində olan dağlıq hissəsindəki sosial-iqtisadi reallıqlar hərtərəfli böhranın ağır sınaqları, hər hansı inkişaf perspektivinin olmaması ilə səciyyələnirdi. Hazırda bu yaşayış məntəqələrində tam tənəzzül hökm sürür.

Bəs Qarabağ erməniləri nəyə ümid edirlər? Qondarma rejim idarəçilərinin nəzarəti altında yaşamaq perspektivi ermənilər üçün yaxşı heç nə vəd etmir. Onlara öz vətəndaşları kimi normal yaşaması üçün yeganə şansı Azərbaycan verir. Əlbəttə ki, bu, erməni millətindən olan insanların layiqli gələcəyi çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətinə reinteqrasiya etmələrindən asılıdır. Əlbəttə, Qarabağın dağlıq əraziləri Azərbaycanın ayrılmaz torpağı kimi dövlətimizin qalan ərazisinə labüd olaraq reinteqrasiya olunacaqdır. Lakin bu məsələdə süni əngəllərin yaradılması burada yaşayan ermənilər üçün növbəti fəlakətlərə yol açır. Amma Qarabağda yaşayan ermənilər də başa düşürlər ki, bütün yollar Bakıya aparır.

Bunu erməni mətbuatı da etiraf edir. Məsələn, "Hraparak" qəzetinin yazdığına görə, halqa o qədər daralıb ki, təşəbbüsü Qarabağ erməniləri irəli sürürlər. Qəzet yazır: "Dünən Qarabağ "hakimiyyəti" Rusiya Federasiyasının sülhməramlı missiyası vasitəsilə Azərbaycan tərəfinə "təcili humanitar məsələlərin müzakirəsi üçün" Rusiya sülhməramlı kontingentinin komandanlığının vasitəçiliyi ilə görüş keçirmək təklifi göndərib". Qəzet xatırladır ki, təxminən bir ay əvvəl Rusiya sülhməramlılarının vasitəçiliyi ilə keçirilən görüşdən sonra Azərbaycan tərəfi bu görüşlərdə reinteqrasiya məsələlərinin müzakirə edilməli olduğunu bildirmiş, Qarabağ sakinlərini Bakıya dəvət etmişdi. Lakin Qarabağ erməniləri Azərbaycanın təklifini qəbul etməmişdilər. "Hraparak" qeyd edir ki, indi dialoqun bərpasına çalışılır.

Bir sözlə, Qarabağdakı erməni sakinlər qaranlıq perspektivdən imtina etmək və müstəsna olaraq Azərbaycan xalqının və dövlətinin bəxş etdiyi yeganə xilas şansını qaçırmamalıdırlar. Halqa anbaan daralmaqdadır.

*E.ELAY, "Xalq qəzeti"*

*Ekoaksiyanın gündəliyi*

# Ekofəalların mübarizliyi düşməni sarsıdıb

**Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını tələb edən ekofəallarımızın aksiyası ətrafında hayların bulandırdıqları sular durulmaqdadır. Belə ki, aksiyanın başlanması ilə Qarabağda ermənilərin guya böyük humanitar faciə ilə qarşılaşdığını iddia edən düşmən Azərbaycanla humanitar məsələlərin müzakirəsindən imtina etmişdi. İndi isə Rusiya sülhməramlılarının missiyası vasitəsilə Azərbaycan tərəfinə bu məqsədlə görüşün keçirilməsini təklif edib. Hayastan mətbuatında Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ölkəmizlə humanitar məsələlərin müzakirəsinin məhz "qanunsuz blokada"ya görə təxirə salındığını, indi isə görüşün bərpa olunduğunu xüsusi vurğulaması artıq bəzi məqamlardan xəbər verir. Ekofəallarımızın etiraz aksiyasının 123-cü günündə də aksiyanın keçirildiyi ərazinin humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıq olması dünya gündəmində olub.**



Göründüyü kimi, Vətənini göz bəbəyi kimi qorumağa, onun yolunda canından belə keçməyə hazır olan Azərbaycan gənclərinin qəti mübarizəsi düşmənin iradəsinə əməlli təsir edir. Ermənilər artıq başa düşüblər ki, aksiyaçıların haqlı tələblərinin qarşısında aciz durumdadırlar, on illər işğalda olan ərazilərimizdə ağır ekoloji terrorun hesabatını vermək zamanı gəlib çatıb.

"Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli "Xalq qəzeti"nə müsahibəsində bildirdi ki, hayların cəzasız qalıb bu gün də davam etdirdikləri ekoloji cinayətlərin tam açılıb dünyaya çatdırılması üçün ölkəmizin bütün vətəndaş cəmiyyəti institutları səylərini daha da artırmalıdırlar. Ermənilərin ərazilərimizdə törətdikləri ekoloji fəlakətlə bağlı araşdırmalar davam etdirilməli, xarici dillərdə kütləvi informasiya vasitələrində ciddi kampaniyalar aparılmalıdır.

Müsahibimiz qeyd etdi ki, ərazilərimizin işğalı dövründə nadir ağaclar bitən meşə zonaları məhv olunub, yandırılıb, bərəkətli torpaqlar sıradan çıxıb, bir hissəsi şoranlaşıb. Kəlbəcərdə Zod, Zəngilanda "Vejnəli və Ağdərədə "Qızılbulaq", "Dəmirçi" mədənləri barbarcasına talan edilib. Erməni caniləri hətta 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatından sonra da ətraf mühitə qarşı vəhşiliklərini davam etdiriblər. Tərk etmək zorunda qaldıqları Azərbaycan ərazilərində – Laçın, Kəlbəcərdə meşə yanğınları törədiblər.

Ermənilər Azərbaycanın su mənbələrinə qarşı da ekosid həyata keçiriblər. İşğal dövründə onların törətdiyi ekoloji cinayətlərdən biri də Oxçuçayın sənaye tullantıları ilə çirklənməsi idi. Çayın ümumi uzunluğunun 40 kilometrlik hissəsi Ermənistan ərazisinə düşür. Burada Ermənistanın bir sıra şəhər və kəndləri, həmçinin iri dağ-mədən sənaye müəssisələri yerləşir. Bunun nəticəsi olaraq, çayın suyu ağır metallar və digər zərərli kimyəvi elementlərlə, məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilib. Çayın Azərbaycan hissəsindəki yatağında ermənicə yazısı olan xeyli məişət tullantılarına rast gəlinib. Çay daha çox Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə çirkləndirilir. Ən dəhşətli ekoloji fəlakət yaradan isə dağ-mədən sənaye tullantılarıdır. Bu tullantılar canlı orqanizmlər üçün daha təhlükəli olub, müəyyən vaxtlarda intensivləşir. Son günlər Oxçuçaya axıdılan bu çirkabın təsiri ilə çayda yaşayan canlıların məhv olması müşahidə edilir. Buna görə də çayın suyundan, balığından və ərazidəki meyvələrdən istifadə qadağan edilməlidir.

QHT sədri dedi ki, Oxçuçayın əsas çirklənmə mənbələrindən biri kimi Ermənistan ərazisindəki "Qacaran mis molibden" kombinatının səhmdarı olan Almaniyanın "Cronimet" Holdinq şirkətinə ünvanlanmış müraciət və çağırışlara baxmayaraq, heç bir əməli tədbir görülməyib. Çayın çirklənməsi bu gün də davam edir. Məsələ ilə bağlı Azərbaycan QHT-ləri dəfələrlə dünyanın aparıcı ekoloji qurumlarına müraciət ediblər. Amma, təəssüf ki, bu müraciətlərə adekvat reaksiya yoxdur. E.Cəfərli deyib ki, vətəndaş cəmiyyətlərinin fəalları beynəlxalq təşkilatlara müraciəti genişləndirməli, onların ofisi önündə aksiyalar keçirməlidir.

Çağdaş dövrdə ətraf mühitin, özəlliklə su mənbələrinin çirkləndirilməsi dünyanın diqqət mərkəzində olan məsələdir. Müharibədə qalib gəlmişik, indi diplomatiya, yumşaq gücün tətbiqi mərhələsidir. Biz Hayastanın son 30 ildə törətdiyi və bu gün də davam etdirdiyi ekoloji cinayətləri ifşa etməli, onları dünya birliyinin diqqətinə çatdırmalıyıq. Bunun üçün ekoloji problemlə bağlı araşdırmalar davam etdirilməli, sosial şəbəkələrdə xarici dillərdə kampaniyalar genişlənməlidir. Oxçuçayın çirkləndirilməsi ilə bağlı ingilis, fransız, rus dillərində sənədli filmlər, videoçarxlar çəkilməli və beynəlxalq təşkilatlara göndərilməlidir.

Bütün vətəndaş cəmiyyətlərini ekoloji terrora qarşı mübarizədə daha sıx birləşməyə çağırıram.

*Leyla QURBANOVA, "Xalq qəzeti"*

# Heydər Əliyev və məhkəmə-hüquq sistemində islahatlar



**Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir. Ölkəmizin məhkəmə-hüquq sisteminin demokratik prinsiplər əsasında bərqərar edilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci mərhələsindən sonra məhkəmə-hüquq sistemində köklü dəyişikliklər baş vermişdir. Azərbaycan məhkəmə sistemi ciddi nailiyyətlər əldə etmişdir.**

## Demokratik dövlətdə məhkəmə sistemi

Hüquqi dövlətdə məhkəmə sisteminin səmərəliliyi həmişə çox vacib şərt olub. Ta qədimlərdən dövlətlərin idarə edilməsində məhkəmələrin yeri və rolu ilk sıralarda qərar tutub. Azərbaycan dövlətçilik ənənəsində isə hüquq həmişə aparıcı rol oynayıb. Təsadüfi deyildir ki, qədim dövrlərdən başlayaraq Azərbaycanda yaradılmış hər bir dövlət üçün hüququn üç forması bir-biri ilə qarşılıqlı əlaqədə olub. Onlardan biri hökmdar hüququ, digəri parlament (divan, məclis) hüququ, üçüncüsü isə cəmiyyətin özünütəşkil qaydasını müəyyən edən hüquq normalarıdır. Hüququn (qanunun) aliliyini təmin edən bu hüquqların həyata keçirilməsində məhkəmə sisteminin rolu əvəzedilməzdir.

Azərbaycanda, bir qayda olaraq, çoxpilləli məhkəmə sistemi mövcud olmuşdur. Hər bir pillədə məhkəmələrin müstəqilliyi, tərəflərin bərabərliyi və çəkişmə prinsiplərinin elementləri yer almışdır. Hakimlərə qarşı xüsusi tələblərə ayrıca diqqət yetirilmişdir. Eyni zamanda, hakimlərin təminatı daim nəzərə alınmışdır. Bütün bunlar Azərbaycan məhkəmə sistemində zaman-zaman yeniliklərin həyata keçirilməsi, islahatların aparılması fövqündə baş vermişdir.

Bu kontekstdə tədqiqatçılar orta əsrlərdə aparılmış və "Qazan xan islahatları" kimi tanınan hüquqi islahatları xüsusi vurğulayırlar. Həmin islahatlar Azərbaycanda məhkəmələrin müstəqilliyinin daha səmərəli təmin olunmasına xidmət edirdi. XX əsrin əvvəllərində yaranmış Azərbayan Xalq Cümhuriyyətində mütərəqqi məhkəmə islahatlarının aparılması istiqamətində çox mühüm addımlar atılmışdır. Lakin bolşevik işğalı bu işi yarımçıq qoydu.

Məsələnin önəmli tərəfi ondan ibarət idi ki, Azərbaycan Xalq Cümhuriyyəti Rusiya İmperiyasının Azərbaycanda hakimlərin seçilməsi üsulunu deyil, mərkəzdən (yəni Moskvadan) təyin edilməsi qaydasını tətbiq etməsinə son qoymalı idi. Bununla məhkəmə sistemi, bütövlükdə, demokratik, müstəqil və daha ədalətli olmalı idi. Çünki hakim seçilirsə, o daha azad, hüquqa uyğun və ədalətli fəaliyyət göstərə bilir.

Nəhayət, 1923-cü il fevralın 13-də Azərbaycanda Ali Məhkəmə orqanı yaradıldı. Bu, Azərbaycanda məhkəmə sisteminin müasir tələblər səviyyəsində institutlaşmasında mühüm bir addım idi.

Doğrudur, SSRİ tərkibində Azərbaycan kimi, onun məhkəmə sistemi də keşməkeşli yol keçdi. Sirr deyil ki, Kremlin bir sıra hallarda Azərbaycana qarşı qərəzli mövqe tutması, başqa sahələrdə olduğu kimi, məhkəmə sisteminin fəaliyyətində də müəyyən problemlər yaradırdı. Bu neqativ tendensiyaya ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən sonra son qoyuldu. Həmin sahə üzrə araşdırma aparan mütəxəssislər vurğulayırlar ki, Azərbaycan məhkəmə sistemi dayanıqlı, məqsədyönlü, ədalətli və hüquqa tam əməl etməklə fəaliyyətini davam etdirdi. Bu səbəbdən, müasir Azərbaycan məhkəmə sistemi ulu öndərin adı ilə bağlıdır.

Bu hadisə XX əsrdə Azərbaycan dövlətçiliyinin, o cümlədən, məhkəmə sisteminin müasir tələblərə uyğun formalaşması baxımından tarixi əhəmiyyət daşıyır. Ümumiyyətlə, dövlətçilikdə başlıca prinsiplərdən biri kimi ədalətli olmağı qəbul edən Heydər Əliyev həmin tələbi konkret tezis formasında məhkəmə sisteminin fəaliyyətinin təməlinə gətirdi. Azərbaycan dövlətçilik ənənəsinin əsas şərtlərindən olan həmin tezis sadə, lakin müdrikcəsinə dərin mənalıdır: "Ədaləti ədalətsizliklə bərpa etmək olmaz!"

Biz bu tezisin fəlsəfi-hüquqi anlamı üzərində dayanmırıq, çünki çox geniş mövzudur. Yalnız onu vurğulayaq ki, həmin tezis məntiqi olaraq məhkəmə fəaliyyətində iki aspekti önə çəkirdi: birincisi, məhkəmə sistemi istənilən situasiyada və kimliyindən asılı olmayaraq hər bir insana qarşı ədalətli olmalıdır. İkincisi, tarixi vəziyyətin dəyişməsi ilə məhkəmə sistemi daim yeniləşməli, islahatlar aparılmalıdır. Birinci şərt Azərbaycanda dövlətçilik ənənəsinə sadiqliyi ifadə edirsə, ikinci şərt daim yeniləşən dünyada məhkəmənin də müasirləşməsi zərurətini ortaya qoyur.

Müstəqil Azərbaycan dövlət quruculuğu mərhələsində bu məqamların tarixi əhəmiyyəti konkret praktikada özünü qabarıq surətdə göstərməkdədir. Bu prosesin də bünövrəsini Heydər Əliyev qoymuşdur. Ümummilli lider bu prosesin müasir hüququn prinsiplərinə tam uyğun, demokratik dövlət quruculuğu şərtləri daxilində həyata keçirilməsinə birbaşa rəhbərlik etmişdir. 1995-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi vurğuladığımız kontekstdə hüquqi baza rolunu oynadı. Bununla müasir dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimiyyətin bölgü prinsipinin, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarının, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatının əsası qoyuldu.

Heydər Əliyev yeni Konstitusiyanın tarixi əhəmiyyəti barədə 12 noyabr 1995-ci ildə Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında belə demişdir: "Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".

## İslahatlar dərinləşir

Ulu öndər hüquqi islahatları sistemli, ardıcıl formada davam etdirmək üçün bu prosesin institutlaşdırılmasına da güclü təkan verdi. Onun əsas əlaməti 21 fevral 1996-cı ildə xüsusi sərəncamla Hüquqi İslahat Komissiyasının yaradılmasından ibarət oldu. Komissiya peşəkar səviyyədə müasir qanunların və digər hüquqi aktların hazırlanaraq qəbul edilməsi istiqamətində fəaliyyət göstərməyə başladı. Komissiya tərəfindən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar hazırlandı. Ölkədə birinci, apelyasiya və kasasiya instansiyalarından ibarət yeni üçpilləli məhkəmə sistemi formalaşdırıldı.

Bu yeniliklər məhkəmə sistemində ciddi dəyişikliklər etdi və mexanizmlərin daha səmərəli işləməsinə imkan yaratdı. Məsələn, 1995–2003-cü illərdə ümummilli lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmışdır ki, bu da 3104 məhkumun azadlığa çıxmasına imkan yaratmışdır. Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996–2003-cü illərdə 8 amnistiya haqqında qanun qəbul etmişdir. Nəticədə həmin müddətdə 20 mindən çox məhkum azadlığa buraxılmışdır. Azərbaycan müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə tədbirlər həyata keçirilmişdir.

Prezident İlham Əliyev ulu öndərin bu istiqamətdə müəyyən etdiyi kurs əsasında məhkəmə sistemində islahatları daha da genişləndirmiş və XXI əsr üçün onun konkret istiqamətlərini müəyyən etmişdir. Bu barədə dövlət başçısı Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda aşağıdakıları vurğulamışdır: "Məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun yaradılması, məhkəmə fəaliyyətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə təkmilləşdirilməsi bu inkişaf prosesinin mühüm istiqamətləridir".

Əlbəttə, məhkəmə islahatları daimi prosesdir. Dövlət başçısı İlham Əliyev bu fikri belə ifadə etmişdir ki, "bu islahatların əvvəli var, amma sonu yoxdur". Məhz həmin kontekstdə İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı fərmanı tarixi adlandırmaq olar. Bununla Azərbaycanda məhkəmə islahatları müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçid etmişdir. Həmin sənədin icrası çərçivəsində qısa müddətdə bu sahədə nəhəng işlər görülmüş, institusional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən, bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır.

İslahatlar daxilində artıq Mülki-Prosessual Məcəlləyə 350-dək dəyişikliklər edilmiş, o cümlədən, sadələşdirilmiş və yazılı icraat genişləndirilmişdir. Məhkəmə proseslərində videokonfrans və elektron icraat tətbiq edilməkdədir. Məhkəmə rüsumlarının diferensiasiyasının tətbiqi də diqqət çəkən faktlardandır.

Azərbaycan Prezidentinin müdrik siyasəti nəticəsində məhkəmə sistemi sahəsində əhəmiyyətli institusional tədbirlər görülmüşdür. Bu kontekstdə məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası və həmçinin Hakimlərin Seçki Komitəsinin yaradılmasını ayrıca vurğulamaq lazımdır. Hakimliyə namizədlərin ən mütərəqqi və şəffaf seçimi qaydası müəyyən olunmuşdur.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması da bu bağlılıqda çox önəmli addımdır. Çünki bu fakt, ümumilikdə, elektron hökumətin fəaliyyətinin genişləndirilməsində, kadr seçimi ilə bağlı daha obyektiv və əsaslı qərarların qəbul edilməsində, rəqəmsal idarəetmə çərçivəsində rəqəmsal məhkəmənin formalaşdırılmasında olduqca geniş imkanlar meydana gətirmişdir.

Bu gün tam əminliklə deyə bilərik ki, hələ illər sonra da gələcək nəsillər dahi şəxsiyyət Heydər Əliyevin misilsiz xidməti nəticəsində yaradılmış yeni hüquq sisteminin bəhrəsini görəcək və onun Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu sahəsində əvəzsiz xidmətlərinin şahidi olacaqlar.

Bütün bunların fonunda Azərbaycanda ali məhkəmə orqanının yaradılmasının 100 illiyinin "Heydər Əliyev İli"ndə qeyd olunması təkcə rəmzi məna daşımır. Bu, həm də müstəqil Azərbaycanın demokratik, ədalətli və daim yeniləşən məhkəmə sisteminin qurucusunun ümummilli lider Heydər Əliyev olduğunu faktlarda təsbit edir! Azərbaycan Prezidentinin müdrik rəhbərliyi ilə vurğulanan istiqamətdə yeni böyük uğurlara imza atılacağına əminik.

***Rafael EYVAZOV,***
***Bakı Apelyasiya Məhkəməsinin hakimi, Mülki Kollegiyanın sədri***

# “Heydər Əliyev və təhlükəsizlik orqanları”



**“Heydər Əliyev İli” çərçivəsində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən respublikamızın şəhər və rayonlarında keçirilən “Heydər Əliyev və təhlükəsizlik orqanları” adlı növbəti tədbir Lənkəran şəhərində təşkil olunub.**

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətindən bildirilib ki, tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, DTX-nin rəhbər şəxsləri və əməkdaşları, şəhərin hüquq-mühafizə orqanlarının rəhbərləri, təhlükəsizlik orqanlarının veteranları, Vətən müharibəsi iştirakçıları, şəhid ailəsi üzvləri, ziyalılar və şəhərin ictimai fəalları iştirak ediblər.

Ulu öndər Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzində ucaldılmış abidəsi ziyarət olunduqdan sonra qonaqlar Heydər Əliyev Mərkəzində dahi rəhbərin mənalı ömür yolunu əks etdirən fotostendlərlə yaxından tanış olub.

Daha sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və müstəqilliyi yolunda canlarından keçmiş qəhrəman övladlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb, ardınca Dövlət Himni səsləndirilib.

Giriş nitqi ilə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş tədbiri açıq elan edərək Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycanın ulu öndərin rəhbərliyi altında keçdiyi inkişaf yolu, əsasını qoyduğu siyasi kursun ölkə başçısı İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi barədə ətraflı bəhs edib. Taleh Qaraşov təhlükəsizlik orqanlarının keçən əsrin 50-60-cı illərində görkəmli dövlət xadimi Heydər Əliyevin gərgin səyləri ilə özünün intibah dövrünə qədəm qoyduğunu, xüsusi xidmət orqanlarının tərkibinin azərbaycanlılaşdırılması, milli təfəkkürlü kadrların təhlükəsizlik təsisatına cəlb edilmələrinin bu orqanların sonrakı fəaliyyətinin uğurlu olmasına zəmin yaratdığını vurğulayıb.

Tədbirdə çıxış edən digər məruzəçilər də öz növbələrində Heydər Əliyevin doğma xalqı və Vətəni yolunda müstəsna xidmətlərindən söhbət açaraq təhlükəsizlik orqanlarında rəhbər vəzifələrdə çalışdığı, xüsusən də respublika rəhbərliyinə irəli çəkildiyi vaxtdan sonra canından çox sevdiyi Azərbaycanın işıqlı gələcəyi naminə mühüm addımlar atdığını və bu siyasi gedişlərin nəticəsi özünü bugünkü müstəqil, güclü, dünyanın iqtisadi və təhlükəsizlik arxitekturasının formalaşmasında önəmli rolu olan Azərbaycanın nümunəsində tapdığını qeyd ediblər.

Tədbirin sonunda DTX-nin Azərbaycan Televiziyası ilə birgə ərsəyə gətirdiyi “Konfidensial” layihəsinin növbəti buraxılışı olan və ulu öndər Heydər Əliyevin təhlükəsizlik orqanlarında xidmət etdiyi zaman onun rəhbərliyi altında keçirilmiş “Port-Pəhləvi” əməliyyatından bəhs edən sənədli film nümayiş etdirilib.

***Q.QASIMOV, “Xalq qəzeti”***

# Lerikdə ağacəkmə aksiyaları keçirilir



**Dağlar diyarı Lerikdə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar ard-arda üç ağacəkmə aksiyası keçirilib.**

Martın sonunda təşkil olunan ilk kampaniya çərçivəsində Lerik şəhərinin park və xiyabanlarında, rayonun idarə, müəssisə, təşkilatların həyətlərində və kənd ərazi icra nümayəndəliklərində 1800-dən yuxarı şam, sərv, akasiya, qovaq, çinar və s. cinslərdən olan müxtəlif növ ağac və gül kolları əkilib. İməcilikdə rayon rəsmiləri, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, ağsaqqallar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bir həftə öncə Lerik şəhərində “Paşa Holding”in təşkilatçılığı və rayon icra hakimiyyətinin dəstəyi ilə 1-ci Qarabağ və Vətən müharibəsində həyatını qurban vermiş qəhrəmanların şərəfinə “Vətən Bağı” ağacəkmə aksiyası keçirilib.

Dünənki ağacəkmə aksiyasına isə şəhid ailələri və qazilər də qatılmışdılar. “Qırmızı Ürəklər" Xeyriyyə Fondunun əməkdaşları, kənd icmalarının üzvləri ümumilikdə park və xiyabanlarda 200-dən artıq müxtəlif növ ağac və gül kolu əkiblər.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

Böyük Zəfərin akkordları

# Suqovuşanın fatehləri

## *Bayrağımızı zirvəyə kimlər qaldırmışdı?*



**İkinci Qarabağ müharibəsi zamanı ən ağır döyüşlərdən biri Suqovuşan istiqamətində oldu. Düşmən ən müasir qüvvələrini bu ərazidə cəmləşdirərək ordumuzun irəliləməsinin qarşısını almağa çalışırdı. Burada çox güclü istehkamlar qurulmuş, bir neçə müdafiə xətti təşkil edilmişdi.**

Qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Həmin günləri xatırlayarkən “N” saylı hərbi hissənin kəşfiyyat rəisi, polkovnik-leytenant Bayram İbişov deyir: “1353 yüksəkliyi düşməndən təmizləndikdən sonra Suqovuşana yol açılmışdı. Qarşıda bu yaşayış məntəqəsinin düşmən işğalından azad edilməsi kimi çox mühüm əməliyyat dururdu. Çünki onun həm hərbi, həm də strateji əhəmiyyəti vardı. Suqovuşan Ağdərə və Sərsəng su anbarı istiqamətində mühüm əhəmiyyətə malik yolların nəzarətdə saxlanılmasında, Ağdərə və digər məntəqələrimizin işğalçılardan təmizlənməsində ordumuza böyük üstünlük yaradırdı.

Bundan başqa, erməni ordusunun “6-cı müdafiə rayonu” kimi qeyd etdiyi 33651 nömrəli hərbi hissə də Suqovşanda yerləşirdi. Bu səbəbdən də yaşayış məntəqəsinin azad edilməsi ordumuzun qarşısında duran ən mühüm vəzifələrdən biri idi. Döyüş tapşırığını yerinə yetirmək üçün 1353 yüksəkliyindən Suqovuşan yaşayış məntəqəsi istiqamətinə üç gün ərzində meşə ilə yol getdik. Yağış yağırdı, paltarlarımız islanmışdı, botinkalarımızın içi su ilə dolu idi.

Əsgərlərimiz soyuqdan əziyyət çəkməli oldular. Üşüdülər, islandılar, ac qaldılar, amma ruhdan düşmədilər, bunu heç vaxt büruzə vermədilər. Onlara nə duman, nə soyuq, nə yağış, nə də relyef mane ola bilmədi. Torpağımız işğaldan azad olunmalı idi…

Əvvəlcə Suqovuşanın ətrafındakı yüksəkliklər, postlar düşməndən təmizlənərək ordumuzun nəzarətinə keçdi. Ermənistan silahlı qüvvələrinin bölmələri bir neçə dəfə hücuma keçərək hərbiçilərimizi tutduqları mövqelərdən çıxarmağa çalışdılar. Hər dəfə də uğursuzluğa düçar olaraq geri çəkilməli oldular. Düşmənin 6-cı dağatıcı alayı ordumuzun uğurlu əməliyyatı nəticəsində darmadağın edildi, müqaviməti qırıldı”.

Bu uğurlu döyüşlərdən sonra “N” saylı briqadanın döyüş hazırlığı bölməsinin rəisi, polkovnik-leytenant Əfqan Abdurahmanov kəşfiyyat bölüyü ilə sol tərəfdən qəsəbəyə girdi. Başqa bölmələr də yaşayış məntəqəsinin azad edilməsində yaxından iştirak etdilər.







“Biz ora daxil olanda erməni hərbçiləri artıq qaçmışdılar. Hər şey olduğu kimi qalmışdı, hərbi texnikalarını, silah-sursat anbarlarını, bazaları dolu şəkildə qoyub 530, 851, 951 və digər yüksəkliklərə çəkilmişdilər. Onlar həmin yüksəkliklərdən bizi hədəf alaraq qəsəbəyə girişimizi əngəlləməyə çalışırdılar. Əməliyyat nəticəsində Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirdi”, – baş leytenant Cavid İbrahimli deyir. Onun sözlərinə görə, qəsəbə düşməndən azad edildikdən sonra Azərbaycan Bayrağının yaşayış məntəqəsində asılması əmri gəldi. Əmrdə deyilirdi: “Təcili düşmən bayrağı endirilsin və Azərbaycan bayrağı qaldırılsın. Çəkiliş aparılsın”.

“Çox həyəcanlı idik. Tapşırığın yerinə yetirilməsi kimlərə tapşırılacaq? Bu məqsədlə boylu-buxunlu, üst-başı təmiz olan hərbçilər seçildi. Polkovnik-leytenant Əfqan Abdurahmanov tapşırığın yerinə yetirilməsi üçün daha təhlükəsiz hərəkət istiqamətini müəyyənləşdirdi. Bu zaman o, ərazinin relyefini əsas götürdü, yəni ən təhlükəsiz hərəkət istiqamətini seçdi. Həmin vaxt Suqovuşanı tərk etmiş düşmən qüvvələri su anbarının yuxarısında yerləşən 951 və 970 adlanan yüksəkliklərdə mövqe tutmuşdular. Bu yüksəkliklərdən snayperlər və iriçaplı silahlardan mövqelərimizə atəş açırdılar. Əfqan Abdurahmanov kəşfiyyat rəisi polkovnik-leytenant Bayram İbişova tapşırığı yerinə yetirmək üçün qrup yaratmağı tapşırdı”, – baş leytenant deyir. Onun sözlərinə görə, B.İbişov ayağından yaralandılğına görə, Suqovuşana gedə bilmədi. “O, tapşırığı icra etmək üçün kəşfiyyatçılardan səkkiz nəfərdən ibarət qrup yaratdı. Qrupa düşmən bayrağını endirib yerində Azərbaycanın üçrəngli bayrağını asmağı əmr etdi. Səkkiz nəfərdən ibarət kəşfiyyat qrupundan dördü müşahidə və mühafizə üçün əlverişli yerdə yerləşdirildi. Fərid Məmmədli, Tərlan Qəzənfərov, Rəşad Tarverdiyev və İlkin Fərzəliyevdən ibarət dəstə isə Madagizə daxil oldu və bayrağımız bu qəsəbədə dalğalandı”.

Qəsəbədə dalğalanan bayrağın isə maraqlı tarixçəsi var. Bu barədə müddət-dən artıq hərbi qulluqçu İnqilab Qayıbov bildirir: “2016-cı ildən müddətdən artıq hərbi qulluqçu kimi kəşfiyyat bölüyündə xidmətə başlamışam. Mənim böyük bayrağım var idi. Rəhmətlik bölük komandirim baş leytenant İsmət Hacıyev onu məndən istədi. Dedim ki, bayrağı məndən istəmə. İnşallah, arzuma çatım, zirvəyə asarıq, ya da bu bayraqla məni dəfn edərsiniz. Yaralandim, bayrağı ilk tibbi yardım göstəriləndə yanımda olan Fərid Məmmədliyə verdim. Sonradan İlkin Fərzəliyev üçrəngli bayrağı Suqovuşanda dalğalandırdı. Videonu isə Fərid çəkmişdi. Kimin asmasından asılı olmayaraq işğaldan azad edilən torpaqlarda Azərbaycan Bayrağı dalğlanır. Bu mənim üçün qürurvericidir”.

Bayrağımızı Suqovuşanda qaldıran İlkin Fərzəliyevin sözlərinə görə, oktyabrın 2-də Suqovuşan yaxınlığındakı yüksəklikdə dayanıblarmış: “Səhərə yaxın, təqribən, saat altıya dörd-beş dəqiqə qalmışdı. Əmr gəldi ki, qəsəbəyə girməli, bayrağımız yaşayış məntəqəsində qaldırılmalıdır. Döyüş başlamazdan əvvəl bayraq məndə idi. Komandirə dedim ki, mənim üstümdə bayraq var, dedi ki, düş aşağı, bayrağı as. Mən və üç döyüşçü yoldaşım düşmən bayrağı asılmış meydana daxil olduq. Dörd kəşfiyyatçı isə əlverişli mövqedə yerləşərək bizi düşmən atəşindən qoruyurdu. Bayraq asılan yerdən, məndən 1500-1800 metr arxada ermənilər təpənin üstündə dayanmışdılar. Yəni orada ermənilərin olduğunu bilirdik.

Düşmənin bayrağını endirdim, yerə düşən bayrağı ayağımla əski parçası kimi bir kənara atdım və bayrağımızı asdım. Yuxarı qaldırdığım bayrağın dalğalanması məni qürurlandırdı. Çox xoşbəxt idim, çünki bu torpaqlar illərdir xilaskarlarının younu gözləyirdi. O torpaqlara ayaq basdığımız an sanki torpaq səni özünə çəkirdi. Neçə illərdir bizim həsrətlə baxdığımız kimi, inanın, ondan da böyük həsrətlə o torpaqlar bizi gözləyirdi. Mən də daxil olmaqla hamımız ən böyük arzumuza çatmışıq.

Günlərlə ac-susuz yol gedir, yaralı yoldaşlarımıza kömək edirdik, eyni zamanda, döyüşürdük. Bizim üçün əsas bayrağımızı yüksəkdə dalğalandırmaqdır, şəhid olsaq da olar. Çox sevinirəm və qürur hissi keçirirəm ki, bir sıra yaşayış məntəqələrinin və strateji yüksəkliklərin azad edilməsində mənim də payım var”, – deyə o, bildirir.

Baş leytenant Cavid İbrahimli isə deyir ki, bayrağın qaldırılmasında onun bölüyündən Əli Şahmarov da iştirak edib: “Üçrəngli bayrağımızın Suqovuşanda dalğalanması hər birimizdə böyük qürur hissi doğurdu. Çox xoşbəxt idik. Bunu yaşamaq bizə nəsib oldu, bütün torpaqlarımızın işğaldan azad ediləcəyinə inamı daha da artırdı. Şanlı bayrağımız Suqovuşanda dalğalandı və bu, yaşayış məntəqələrində dalğalanan ilk bayraq idi”.

Beləliklə, ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Suqovuşan Vətən müharibəsinin yeddinci günündə azadlığına qovuşdu. Düşməndən təmizlənən digər yaşayış məntəqələrimiz kimi, Suqovuşanın da azad, işıqlı günləri başlandı.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Cavab gözləyirik

**“Hörmətli Rəşad müəllim! “Xalq qəzeti”nin 24 yanvar 2023-cü il tarixli nömrəsində dərc olunmuş “Şəmkirin şəhər tipli qəsəbəsi niyə bu gündədir?” sərlövhəli yazı tədbir görülmək üçün Sizə göndərilir. Nəticə barədə redaksiyaya məlumat verməyiniz xahiş olunur”**

# Nə tədbir görülür, nə də cavab verilir

Bu sözlər redaksiyamızın bu il fevralın 1-də Şəmkir Rayon İcra Hakimiyyətinin başçısına göndərdiyi məktubdandır. Yəni redaksiya bildirib ki, tənqiddən sonra görülən iş barədə məlumat verilsin və biz də icra hakimiyyətinin cavab məktubunu qəzetdə dərc edərək, oxucularımıza çatdıraq.

Əslində, bu məktub göndərilməyə də bilərdi. Çünki rəsmi mətbuatı hər kəs, ilk növbədə icra strukturları izləyir və bilirik ki, Şəmkirdə də “Xalq qəzeti”nin çoxlu oxucusu var. Ona görə də tənqidi yazı ilə tanış olduqdan sonra dərhal reaksiya olmalı idi. Ya bildirilməli idi ki, məqalədə göstərilən faktlar həqiqətə uyğun deyil, ya da görülən və ya gələcəkdə görüləsi işlər barədə məlumat veriməli idi. Təsadüfi deyil ki, ölkə Prezidenti, cənab İlham Əliyev deyib: “Əgər reaksiya verilməyəcəksə, o pozuntuları törədənlər daha da böyük pozuntular törədəcəklər. Ona görə, mətbuatın burada nadir rolu var.”

Yenə hər ehtimala qarşı redaksiya tərəfindən məktub göndərilib ki, böyük rayondur, işi-güc çox, problemlər kifayət qədər, baş qarışıq ola bilər, oxumazlar. Amma bu, ehtimaldır, inanmırıq ki, rayon haqqında gedən tənqidi yazı oxunulmasın. Çünki sosial şəbəkədə icra hakimiyyəti, eləcə də onun başçısı fəaldır, mətbuata biganə deyil.

Digər tərəfdən, məlumat aldıq ki, yazı dərc olunan günün ertəsi icra hakimiyyətinin başçısı tənqid etdiyimiz həmin Kür qəsəbəsinə gedib, adamları bir yerə yığıb, onlarla görüş keçirib, problemləri ilə maraqlanıb. Düzü bu xəbəri eşidəndə çox sevinmişdik. Fikirləşirdik ki, nəhayət, bu böyük qəsəbədə işlər yoluna düşəcək. Yəni abadlıq-quruculuq işləri genişlənəcək, yol kənarlarındakı şəhid portretlərinə əl gəzdiriləcək, onların ətrafı gül-çiçəyə bürünəcək, gözəl, müasir xəstəxanaya gedən yol sahmana salınacaq, xəstəxananın özü normal fəaliyyətə başlayacaq, məişət tullantılarının tüstüsü ətrafa yayılmayacaq, primitiv zibil qabları yeniləri ilə əvəz olunacaq, vaxtilə hamının əsl istirahət yerinə çevrilən park yenidən sakinləri öz qoynuna alacaq... Amma deyir “sən saydığını say, görək fələk nə sayır”.







Dünən, eləmədim tənbəllik, yenidən yolumu saldım Kür qəsəbəsindən. Yeganə diqqətimi cəlb edən yol kənarlarındakı dəmir lövhələr üzərindəki şəhid şəkilləri oldu. Tənqiddən sonra az-maz qayda yaradıblar. Ona görə “az-çox” deyirəm ki, tezliklə bu şəkillər də bozaracaq və təzə çəkilməsinə baxmayaraq artıq indidən ağarıb. Yəqin ki, keyfiyyətli materiallardan hazırlansaydı, belə olmazdı. Qəsəbəyə gedən yolda bəzi portretlər yenə də hara gəldi səpələnib, çala-çuxurun arasındadır.

Adını çəkdiyimiz gözəl qəsəbə parkı isə indi lap biabırçı günə düşüb. Sanki yaz fəsli hələ gəlməyib. Ağacların dibi bellənməyib, ətrafda antisanitariya hökm sürür. Zibil qalaq-qalaq yığılıb. Fəvvarənin içərisi tullantılarla dolu üfunət qoxuyan çirkabdır. Parka gedən yoldan rahat keçmək mümkün deyil. Çünki neçə vaxtdır dağılan içməli su xəttini düzəldən tapılmır, boş yerə axıb gedir. Hətta artıq bərbad vəziyyətə düşən yaxınlıqdakı məktəbin zirzəmisinə yaxınlaşmaqdadır. Burada rastlaşdığımız qəsəbə sakini Aqil Məmmədov dedi ki, park günün istənilən vaxtı sərxoşların məkanına çevrilir. Normal istirahət üçün şərait yaradılmaması bir yana, heç ailə-uşaqla bura gəlmək mümkün olmur. Burada primitiv bir kafedə spirtli içkilər verirlər. Doğrudan da, sakinin dediyi mənzərəni öz gözlərimlə gördüm və çox təəssüf etdim.

Yolu dağılan xəstəxana isə demək olar ki, işləmir. Təcili yardımın bir-iki işçisindən başqa bir kimsəni tapmaq da mümkün deyil.

Biz daim qərəzdən uzaq olmuşuq. Məqsədimiz yalnız ümumi işimizə kömək etmək, nöqsanları görmək və onları xatırlatmaqdır. Cənab Prezidentimizin də dediyi bu sözlər bizə stimul verir, həvəsləndirir: “Bir çox hallarda ölkədə, misal üçün, hər hansı pozuntular baş verdikdə, qüsurlar olanda, yaxud da, hər hansı bir xoşagəlməz vəziyyət yarananda mən məlumatı, o cümlədən, mətbuatdan əldə edirəm.»

Şəmkirin yaxşı işini, maraqlı təcrübəsini həmişə işıqlandırmışıq və bundan sonra da belə olacaq. Təkcə son bir neçə ayda, qəzetin müxtəlif nömrələrində rayon haqqında dərc etdiyimiz yazılara fikir verin: “Şəhid atası razılığını bildirdi”, “Küçələr öz görkəmini dəyişir”, “Nə arxa ehtiyac var, nə cuvara”, “Şəmkirdə bu günədək 120 min ton kartof yığılıb” və sair bu kimi müsbət səpgili yazılar vermişik. Bəs görəsən nə baş verdi ki, üç aya yaxındır bir yazıya cavab verilmir? Axı bizim qanunları oxuyan hər kəs yaxşı bilir ki, “qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, müraciətə, qanunvericiliklə başqa müddət nəzərdə tutulmamışdırsa, bir ay müddətinədək, əlavə öyrənilməsi və yoxlanılması tələb edilməyən müraciətə ən geci 15 gün ərzində baxılmalıdır”. Mən hələ bu yaxınlarda mətbuatla bağlı, jurnalistlərin sorğusu ilə bağlı Milli Məclisdə qəbul olunmuş qanunu xatırlatmıram. O, daha sərtdir, təkrar yazmaq istəmirəm.



Sonda dövlət başçımızın daha bir fikrini xatırlatmaq istəyirəm: “Dövlət məmurları və yaxud digər şəxslər bilirlər ki, Azərbaycanda söz azadlığı, mətbuat azadlığı imkan verməyəcək ki, onlar hansısa işlər görsünlər, qüsurlar buraxsınlar. Ona görə, jurnalistlər bəlkə özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, gələcəkdə də siz bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında – harada ki hansısa ədalətsizlik, qanunsuzluq var – dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz”

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Paşinyan: “Bu tələdən çıxacağımızı düşünürdük, amma...”

**Hayastanın baş nazirinin “2007-ci ildə Madrid prinsipləri ortaya çıxanda Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb” fikrini gecikmiş etirafı kimi qəbul etmək olar. Amma bu etirafın ardınca Paşinyanın daha hansı təxribata əl atacağını bilmədiyimizdən, çomağı əlimizdə möhkəm tutmalıyıq.**



Ermənistanın təkcə Qarabağla bağlı uğursuzluqda deyil, ümumiyyətlə, bölgədə, MDB məkanında, hətta beynəlxalq müstəvidə üzləşdiyi hərbi-siyasi, diplomatik kollapslarda özündən əvvəlki hakimiyyət yetkililərini günahlandırmağı adətə çevirmiş Nikol Paşinyanın budəfəki bəyanatları yeni olmasa da, bəzi simptomları tibbi narahatlıq doğurur. Misal üçün, kollapsa düşən xəstədə başgicəllənmə, hipotoniya, huşun itrilməsi kimi ağırlaşmalar baş verəndə spesifik müalicə üsulu kimi, ayaqlarını yuxarı qaldıraraq uzanması məsləhət görülür. Deyəsən, Hayastanın başını itirmiş baş nazirinin reallıqdan uzaq, siyasi avantürizm nümunəsi sayıla biləcək açıqlamaları da məhz kollaps xəstəliyinin əlamətlərini xatırladır.

* * *

“Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb”. Erməni mediası yazır ki, baş nazir Nikol Paşinyan bu sözləri Ermənistan Milli Assambleyasında çıxışı zamanı deyib. Parlamentarilərə müraciətində Madrid prinsiplərindən danışan Paşinyan 2007-ci ildə rəsmi İrəvanın Qarabağ münaqişəsinin mərhələli həlli variantının təklif edildiyi bu formatda diplomatik fiaskoya uğradığını bildirib. Yəni, onun sözlərinə görə, bu prinsiplərin qəbulu “Azərbaycan üçün Qarabağın öz müqəddəratını təyin etməsi məsələsində başlanğıc nöqtəyə çevrilib”. O, Madrid prinsiplərinə görə, Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıdığını etiraf edib: “Bu faktın üstündən keçmək mümkün deyil və ondan yayına da bilmərik. İndi biz məhz on altı il əvvəl səpilən toxumun “məhsulunu” görürük”. Düz sözə nə deyə bilərik. Bəli, səpilən toxum sonda hazır məhsula çevrildiyi kimi, qazana tökülən ədviyyat da gec-tez aşpazın öz qaşığında üzə çıxır. On altı il əvvəl əkdiklərini indi biçməyə və yeməyə tərəddüd edən, 2018-ci ilin mayından bu barədə açıqlama verilməməsini hökumətin kobud səhvi olduğunu deyən Hayastanın baş nazirinin növbəti etirafı daha maraqlı və yaddaqalan olub: “Hansısa yolla düşdüyümüz bu tələdən çıxa biləcəyimizi və ya heç olmasa, problemin həllinə töhfə verəcəyimizi düşündük. Amma qurulan tələ beynəlxalq səviyyədə razılaşdırıldığı üçün biz bunu edə bilmədik”. Paşinyana xatırladırıq ki, indi edə biləcəkləri yeganə şey Bakının sülh təkliflərini qəbul etməkdir. Münaqişənin dinc yolla həllini istəyən şəxs isə hər şeydən əvvəl səmimi olmalıdır. Əks təqdirdə nə dialoq baş tutur, nə də qarşılıqlı anlaşma.

* * *

Ermənistan Milli Assambleyasının deputatı Sisak Qabrielyanın İrəvanın Rusiya və KTMT ilə münasibətlərinə dair sualına cavab verən Paşinyan burada mövqelərinin dəqiq, şəffaf, legitim və əsaslı olduğunu vurğulayıb. Hayların baş naziri sələflərinin bu münasibətlərin məhz onun hakimiyyəti dövründə pisləşdiyi barədə iddiaları ilə razılaşmadığını söyləyib: “Bu münasibətlər nə vaxt pisləşmişdi? Xatırlatmaq istəyirəm ki, məhz keçmiş iqtidarların vaxtında Moskva ilk dəfə Azərbaycanla çoxmilyardlıq silah müqaviləsi imzaladı. Əgər onların Kremllə yaxşı münasibətləri var idisə, niyə bizim strateji müttəfiqimiz 2011, yaxud 2012-ci ildə Bakı ilə silah satışına dair ilk sazişi bağladı, İrəvana silah verilməsini isə məhdudlaşdırdı?”.

• **XATIRLATMA:** *Hayastanın baş naziri bunları bilmirsə, getsin arxivdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sənədlərinə baxsın. Sovet İttifaqı dağıldıqdan sonra dünya birliyi Azərbaycanın sərhədlərini və ərazi bütövlüyünü tanıyıb, ölkəmiz beynəlxalq təşkilatlara həmin sərhədlər çərçivəzində üzv olub.*

Özündən savayı hamını günahkar çıxaran Paşinyan iki respublika arasında sərhəd probleminin əsasının Serj Sarkisyanın prezidentliyi dönəmində qoyulduğunu iddia edib. Öncədən düşünülmüş 11 aprel hərbi avantürasının ardınca dörd tərəfdən daha çeşidli zərbələr almağa başlayan rəsmi İrəvanın bu dəfə də əməllərinin fəsadları ilə üz-üzə qaldığını söyləyə bilərik. Hərbi-siyasi dəstək almaq üçün onu Parisə, Brüsselə, Praqaya, Vaşinqtona apara biləcək yolları bağlanan Paşinyan hökumətinə qarşıda Şimal müttəfiqindən gözlədiyi ağır zərbələri, alacağı cəzaları hesablamaq qalır.

Xəstənin cəzalandırılması insafdan sayılmasa da, onun sağalma ehtimalının həm də bu üsuldan asılı olduğunu deyənlərlə razılaşmamaq mümkün deyil.

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

*Ekspert rəyi*



**Fikrət SADIQOV, politoloq**

– Paşinyan bir yandan bəyan edir ki, Qarabağ Azərbaycanın tərkib hissəsidir, digər tərəfdən deyir ki, bu, ayrıca bir məsələdir və Qarabağ erməniləri bunu Bakı ilə danışmalıdılar. Azərbaycanla sülh sazişinin imzalanması gündəmə gələndə isə Paşinyan orada mütləq bir maddədə Qarabağ ermənilərinin təhlükəsizliyinin əks olunmasını irəli sürür. Yəni, yenə də ona aid olmayan məsələlərə müdaxilə edir. İndi də deyir ki, guya Madrid prinsiplərinə riayət olunmadı, əvvəlki rəhbərlik siyasi baxımdan özünü düzgün aparmadı, belə yox, başqa cür hərəkət etməli idi. Bunların hamısı cəfəngiyyatdır. Onun əsas məqsədi keçmiş hakimiyyəti qaralamaq və onu tənqid etməkdir. Düzdür, bu, onların daxili siyasi çəkişmələridir və bizə aidiyyatı yoxdur. Sabiqlər isə ona cavabında bildirirlər ki, vaxtilə Rusiyadan “İskəndər” raketlərini biz almışıq, Moskva ilə hərbi-texniki sazişi biz bağlamışıq. Sənsə indi üzünü Avropaya çevirmək istəyirsən. Bu yolla heç nə əldə olunmayacaq və s.

Bütün bunların fonunda Paşinyan iqtidarı yenə Azərbaycana qarşı təxribatla məşğuldur. Atəşkəsi pozurlar, bizə qarşı ərazi iddialarını davam etdirirlər. Deməli, bu vəziyyətdə Paşinyan normal, sağlam siyasi addımlar atmaq qabiliyyətinə malik deyil. O, bu kursu davam etdirərsə, hər dəfə Azərbaycan tərəfindən adekvat cavabını alacaq. Bakı heç bir təxribata göz yummayacaq. Onlar bunu anlamalı və nəticə çıxarmalıdırlar.

**Fransanın Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin bölmələrinin aprelin 11-də törətdiyi təxribatla bağlı bəyanat yayıb. Qeyd edək ki, həmin gün saat 16:20 radələrində Ermənistan ordusunun hərbçiləri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Nəticədə, üç hərbi qulluqçumuz şəhid olub, dördü yaralanıb. Yaralanan hərbçilərimizdən ikisi əraziyə yaxın yerləşən hərbi tibb müəssisəsindən sanitar aviasiya vasitəsilə ixtisaslaşdırılmış hərbi tibb müəssisəsinə təxliyə olunub. Ermənistan müdafiə nazirliyi 4 hərbçi itirdiklərini, 6 nəfərin yaralandığını açıqlayıb.**

# Üstümüzə Kolonna gəlir



Fransa XİN hər zamankı kimi, olaya özünəməxsus şəkildə münasibət açıqlayıb. Qeyd edib ki, insident aprelin 11-də Ermənistanla Azərbaycan sərhədində baş verib. Dərhal da ermənipərəst xislətinə sadiq qalaraq, hadisənin Ermənistanın Dığ (bəyanatda kənd Tex adlandırılır) yaşayış məntəqəsi ərazisində baş verdiyini vurğulayıb. İki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiya edilmədiyi, şərti xarakter daşıdığı bir dövrdə Fransa XİN-in hansı kəndin harada olmasına dair rəyi heç də birmənalı qarşılanmır. Xarici siyasət idarəsi daha sonra hər iki tərəfdən 7 nəfərin ölümü və bir neçə nəfərin yaralanması ilə nəticələnən zorakılıqdan (?) dərin narahatlığını bildirib.

Fransa sərhədin delimitasiyasının istisnasız olaraq danışıqlar yolu ilə həyata keçirilməli olduğunu xatırladıb və tərəfləri bu istiqamətdə səylərini davam etdirməyə çağırıb. Azərbaycan da hər zaman mübahisəli məsələlərin sülh yolu ilə danışıqlar masası arxasında həllinin tərəfdarı olub. Ermənistanla danışıqlar prosesinin 30 ilə yaxın uzanması da rəsmi Bakının sülhpərvərliyinin ifadəsi hesab olunmalıdır. Bu baxımdan bəyanatın bu bəndində əksini tapan məqamlar, əslində, İrəvana ünvanlanmalıdır. Necə deyərlər, top Ermənistanın meydanındadır.

Ancaq Fransa XİN-in bura qədərki fikirlərini birtəhər yola vermək olar. Görün, “demokratiya beşiyi”nin diplomatik orqanı daha sonra nə deyir: “Ermənistanın ərazi bütövlüyünə hörmət və Azərbaycan Silahlı Qüvvələrinin qoşunların təmas xəttinin Ermənistan tərəfindəki işğal olunmuş (???) mövqelərdən çıxarılması gələcək insidentlərin qarşısının alınması və regionda davamlı sülhün əsaslarının qorunub saxlanılması üçün zəruridir. Fransa sərhədin Ermənistan tərəfində yerləşdirilmiş, onun töhfə verdiyi və gərginliyin azaldılmasında mərkəzi rol oynayan Avropa İttifaqının mülki missiyasının (EUMA) fəaliyyətini tam dəstəkləyir. Fransa Ermənistan və Azərbaycan arasında atəşkəs rejiminə əməl edilməsi, dialoq və danışıqların davam etdirilməsi üçün Avropa İttifaqı ilə birgə işləməyə davam edəcək”, – deyə bəyanatda qeyd olunur.

Fransa ATƏT-in Minsk qrupunda üç həmsədr dövlətdən biri olsa da, 30 il ərzində Ermənistana Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmaqla bağlı bir dəfə də olsun çağırış etməyib. Rəsmi Paris erməni lobbisinin və ölkədəki erməni icmasının maraqları naminə nəinki Azərbaycanla, eləcə də Türkiyə ilə münasibətləri pisləşdirmək yolu tutub. Status-kvonun dəyişdirilməsi üçün təşəbbüs göstərməyib, qondarma “erməni soyqırımı”nın tanınması ilə bağlı 4 dəfə (1998, 2000, 2001 və 2006-cı illərdə) qətnamə qəbul edib. Fransanın keçmişi ermənipərəst və anti-Azərbaycan, anti-türk, islamofob addımlarla doludur. Mövqeyində obyektivlikdən əsər-əlamət olmayan bir ölkənin Azərbaycanı nədəsə ittiham etməyə mənəvi haqqı yoxdur.

***

Fransa XİN-in bəyanatına ölkəmizin cavabı özünü çox gözlətməyib. Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: “Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Ermənistan tərəfinin 11 aprel tarixində Laçın rayonu istiqamətində yerləşən mövqelərimizə qarşı təxribatı ilə əlaqədar Ermənistanı dəstəkləyən 12 aprel tarixli bəyanatı reallığı əks etdirmir. 25 ilə yaxın müddətdə Azərbaycan–Ermənistan münaqişəsində vasitəçi olarkən Ermənistanın təcavüzünə və işğalçı siyasətinə qiymət verməyən, münaqişənin həllinə çalışmayan, Azərbaycanın işğala son qoyaraq münaqişəni təkbaşına həll etməsindən sonra ölkəmizə qarşı qarayaxma kampaniyası aparan Fransa bu bəyanatla növbəti dəfə qeyri-ədalətli mövqe nümayiş etdirib.

Üçtərəfli bəyanata və Fransa Prezidentinin də iştirakçısı olduğu Praqa görüşünün nəticələrinə uyğun olaraq, Ermənistanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə çağırmayan, Azərbaycan ərazilərindən erməni silahlı qüvvələrini çıxarmağı Ermənistandan tələb etməyən Fransa tərəfinin birtərəfli əsasda yalnız Ermənistanın ərazi bütövlüyünə hörmət edilməsinin vacib olduğunu bəyanatda bildirməsi Fransanın ölkəmizə qarşı qərəzinin nümunəsidir. Fransa tərəfini, Ermənistanı növbəti təxribatlara təhrik edən, revanşist qüvvələrə dəstək verən bu kimi bəyanatlardan çəkinməyə çağırırıq”.

***

Onu da qeyd edək ki, Katrin Kolonnanın Fransa XİN-ə rəhbərlik etdiyi 11 aya yaxın müddət ərzində nazirliyin bu tipli təhrikçi bəyanatlarının sayı artıb. Özü korsikalı olsa da, illərlə istibdad içində yaşamış Korsikanın, 300 minlik korsunun bugünkü problemlərinə laqeyd olan xanım Kolonnanın bu canfəşanlığı xeyli müəmmalıdır. K.Kolonnanın korsikalıların doğma dili korsunun hüququnun tanınmasına Fransa hökumətinin inadla “yox!” deməsinə susqunluğu da diqqətdən yayınmır. Yaxşı olardı ki, xanım Kolonna Fransadan min kilometrlərlə uzaqda yerləşən Ermənistan–Azərbaycan şərti sərhədində baş verənlər barədə danışmaqdansa, bir dəfə də Marseldən, yaxud Kanndan müvafiq olaraq 398 və 365 km uzaqlıqda olan Korsikanın problemlərini qaldırsın. Digər tərəfdən, Azərbaycanın mövqeyi elə güclüdür ki, onu üzərinə yüz Kolonna və ya kolonun gəlməsi qorxuda bilməz. Azərbaycan indiyədək doğru bildiyi siyasəti yürüdüb. Bu siyasi xətt bundan sonra da davam etdiriləcək.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

*Ekspert rəyi*

**Züriyə QARAYEVA, politoloq**



– Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Ermənistanı dəstəkləyən bəyanatı reallığı əks etdirmir. Rəsmi Paris həmsədr olduğu müddətdə Ermənistanın təcavüzünə və işğalçılıq siyasətinə qiymət verməyib. İndi isə Fransa Ermənistanı dəstəkləməklə yanaşı, birbaşa Azərbaycanı ittiham etməyə başlayıb. Vətən müharibəsindən sonra Fransa ard-arda ölkəmizlə bağlı həqiqəti əks etdirməyən, absurd və bütün bəndləri yalanlardan ibarət qətnamələr qəbul edib. Emmanuel Makronun ən çox güvəndiyi Frankofoniya Təşkilatı belə qətnamələrdən birini qərəzli adlandırıb. Nəticə etibarilə, Azərbaycana yönəlik əsassız ittihamlar qətnamədən çıxarılıb. Fransa Azərbaycan və Türkiyəyə düşmən mövqeyində olan Ermənistanı dəstəkləməklə özü də düşmənçiliyini bildirir.

Fransa dövləti Makrondan öncə də ermənipərəst mövqe sərgiləyib. Bunun bir səbəbi Fransada güclü erməni lobbisinin olması ilə bağlıdırsa, digər səbəbi bu ölkənin əsrlərdən bəri dənizlərdə hegemon olmaq istəyi və bu marağının İngiltərə, ABŞ-la yanaşı, həm də Türkiyə ilə toqquşmasıdır.

Beləliklə, Fransa uzun illərdən bəri türk düşməni rolunu oynamağa davam edir. Fransa XİN-in məlum bəyanatına da bu kontekstdə baxılmalıdır. Beynəlxalq hüququn Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə baxmayaraq, Makron hökuməti açıq-aşkar ermənipərəst mövqe sərgiləyərək, Fransanı Ermənistanın faşizm siyasətinin əsirinə çevirib.

# Əsirə işgəncə vermək də erməni xislətidir

**Azərbaycan Xarici İşlər Nazirliyi beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçusuna qarşı işgəncə və qeyri-insani rəftarı pisləməyə çağırıb.**

Hayların xislətinə yaxından bələd olsaq da, xüsusilə Birinci Qarabağ müharibəsi dövründə onlardan hər cür rəzaləti, insanlıqla bir araya sığmayan vəhşiliyi görsək də, indi, atəşkəs şəraitində dumanda yolunu azaraq qarşı tərəfə keçmiş, onlara bir güllə belə atmayan gənc əsgərimiz Hüseyn Axundovu vəhşicəsinə döymələrini hansı əxlaq və hüquq meyarı ilə ölçmək olar? Bu vəhşi rəftarın, belə heyvani davranışın bir adı var – erməni faşizmi! Nə etməli, bizə də belə qonşu qismət olub.

## Dünyadan Ermənistana təpki gözləyirik

“Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən azaraq itkin düşən Azərbaycan Ordusunun 2 əsgəri Ermənistan tərəfindən saxlanılıb. Onlar şiddətli şəkildə döyülüb və işgəncələrə məruz qalıblar. Bu cür pis rəftar, tamamilə qəbuledilməzdir və beynəlxalq səviyyədə pislənməlidir”. Bu açıqlamanı XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə tviterdə yazıb.

XİN rəsmisi “beynəlxalq ictimaiyyəti Ermənistan tərəfindən saxlanılan Azərbaycan hərbi qulluqçusuna qarşı işgəncə və qeyri-insani rəftarı pisləməyə çağırıb”.

Oxucuların nəzərinə çatdıraq ki, Azərbaycan Ordusunun iki əsgəri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhəd ərazisində əlverişsiz hava şəraiti səbəbindən yolu azaraq itkin düşüblər. Dünən Ermənistan Müdafiə Nazirliyi Azərbaycan əsgərlərinin saxlandığını etiraf edib. Bundan əvvəl isə sosial şəbəkələrdə, erməni mediasında əsir götürülən hərbçimizin döyülməsi, ona ağır işgəncə verilməsi ilə bağlı video-görüntülər yayılıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Azərbaycan Ordusunun itkin düşən iki əsgəri ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib.

Beşikdən beyinlərini türk millətinə nifrətlə yuduqları körpə dığaların böyüyüb qana susamış daşnaka çevrildiyi şübhəsizdir. Amma onların içində nifrətdən yoğrulmuş qəddarlığın, bəşər övladına xas olmayan heyvani vəhşiliyin dərəcəsinə, miqyasına heyrət etməmək mümkün deyil. Yadımıza böyük yazıçımız, rəhmətlik Mirzə İbrahimovun 1989-cu ildə, Qarabağ münaqişəsinin təzə-təzə körükləndirildiyi vaxt Kremldə, Sov.İKP MK-nın xüsusi sessiyasında erməni daşnaklarının ünvanına dediyi sözlər düşür: “Tanrı bəndəsini cəzalandırmaq istəyəndə, əvvəlcə onun ağlını əlindən alır. İndi O, bu ermənilərin hamısını ağıldan məhrum edib”. Müdrik söz adamı o zaman sözün düzünü deyib. Əlavə nə deyəsən ki?..

***“Xalq qəzeti”***

# Əzab və iztirab görüntülərinin yayılması məsləhət deyil

## *Mətbuat Şurasından tövsiyə*

**Azərbaycan Mətbuat Şurası aprelin 11-də Ermənistanın təxribatı nəticəsində şəhid olmuş hərbçilərimizdən birinin dəfn mərasimindən bəzi fotoların yayımlanmasının yolverilməzliyi ilə bağlı tövsiyə xarakterli münasibətini açıqlayıb. Açıqlamada deyilir:**

“Media orqanları, jurnalistlər və populyar sosial şəbəkə istifadəçiləri insanların iztirabının, ağır durumlarının əks olunduğu foto və videogörüntülərin paylaşılmasına həssas yanaşmalıdırlar. Bu zaman təqdimatın nə dərəcə ictimai əhəmiyyət daşıdığı ciddi şəkildə nəzərə alınmalıdır. Hətta ictimai əhəmiyyət daşıyan hadisələrdə belə, ayrı-ayrı mənəvi detallara diqqət yetirilməsi son dərəcə vacibdir. Xüsusən də uşaqlarla bağlı məqamlara.

Lakin aprelin 11-də Ermənistanın təxribatı nəticəsində şəhid olmuş hərbçilərimizdən birinin dəfn mərasimindən çəkilmiş bəzi fotolarda həssas yanaşmanın şahidi olmadıq. Bu baxımdan şəhid övladının çəkdiyi əzabın və acının görüntülənərək yayılması halları ayrıca vurğulanmalıdır.

Burada mübahisə predmeti kimi iki məsələ üzərində dayanmaq mümkündür. Birincisi, azyaşlının ağır emossional durumunun təsvirinin yolverilməzliyi, ikincisi, cəmiyyətdə ruh düşkünlüyünün, bədbinliyin formalaşmasını doğuracaq təmayülün qabardılması.

Nəzərə alınmalıdır ki, hər iki hal Azərbaycan qanunvericiliyi ilə də mübahisələndirilə, müvafiq mexanizmlərin dövriyyəyə girməsinə əsas formalaşdıra bilər. Belə olduqda isə konkret şəxslər, o cümlədən, jurnalistlər üçün hüquqi məsuliyyət perspektivinin reallığa çevrilməsi mümkünləşər ki, bu da arzuolunmazdır. Əlbəttə, daha arzuolunmaz məqam həm də mənəvi məsuliyyətin ön plana çıxmasıdır.

Azərbaycan Mətbuat Şurası media orqanlarını, jurnalistləri, eləcə də özünü cəmiyyətə informasiya verilməsində məsul sayan hər kəsi, habelə sosial şəbəkə istifadəçilərini diqqətə çatdırdığımız görüntüyə bənzər təqdimatların yayımlanmasına həssas yanaşmağa, onların cəmiyyətdə doğura biləcəyi neqativ reaksiyaları, mümkün mənəvi və hüquqi məsuliyyət məsələlərini əvvəlcədən düşünməyə çağırır”.

***R.AMİN***

# Naxçıvan “yaşıl enerji” dəhlizinə çevrilir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın enerji təhlükəsizliyi sahəsində görülmüş işlər mühüm əhəmiyyəti ilə seçilir. Vətən müharibəsində qazandığımız qələbədən sonra ölkəmizdə “yaşıl enerji” layihələrində yeni mərhələnin başlanması isə bu sahədə qarşıya qoyulmuş hədəfləri daha da aktuallaşdırıb.**




Ötən dövrdə paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin digər bölgələrində də bərpaolunan enerji layihələri üçün potensial ehtiyat bir daha nəzərdən keçirilib, bu istiqamətdə müvafiq addımlar atılıb. “Yaşıl enerji” konsepsiyasının Naxçıvan Muxtar Respublikasında geniş tətbiqi üzrə yaradılan işçi qrupunun bölgəyə səfəri də bu baxımdan önəmli oldu.

Qeyd edək ki, bu il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında Prezident İlham Əliyev bildirmişdi ki, Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikasında ən azı 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisinin mümkünlüyünü nəzərdən keçirir. Dövlətimizin başçısı mövcud potensialın bundan da artıq olduğunu diqqətə çatdırmışdı. Elə bu istiqamətdə həyata keçirlən tədbirlərin davamı kimi energetika nazirinin müavini Elnur Soltanovun rəhbərlik etdiyi işçi qrupunun Naxçıvana səfərində bir sıra istiqamətlərdə müzakirələr aparıldı, həyata keçiriləcək pilot layihələrlə bağlı müəyyən olunmuş ərazilərə baxış keçirildi.



**Energetika nazirinin müavini səfərin sonunda qəzetimiz üçün açıqlamasında bildirdi:** “Hazırda ölkə Prezidentinin tapşırığı ilə Naxçıvanda “yaşıl enerji” zonasının tələblərinə uyğun olaraq energetika sisteminin yenidən qurulması gündəmdədir. Naxçıvanın Türkiyəyə sərbəst çıxışının olması burada istehsal ediləcək enerjini digər bazarlara da yönəltməyə imkan verəcək”.

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev isə görüləcək işlər barədə dedi:** “Naxçıvanda çox böyük günəş potensialı var. Həmçinin hazırda müəyyən ərazilər var ki, küləyin potensialı orada külək elektrik stansiyalarının qurulması üçün yetərlidir. Bu baxımdan çox ciddi şəkildə işlərə başlanılıb. Müsahibimiz onu da vurguladı ki, təxminən 8 min hektardan çox ərazi var ki, onlar bərpa olunan enerji mənbələri stansiyalarının tikilməsi üçün tam şəkildə yararlı vəziyyətdədir”.

Öyrəndik ki, Naxçıvanda “yaşıl enerji” konsepsiyasını reallaşdıracaq işçi qrupun işi iki istiqamətdə müəyyənləşdirilib. Birincisi, uzunmüddətli strateji planda Naxçıvanın “yaşıl enerji” zonasına çevrilməsi, ikincisi isə, uzunmüddətli plan başlananadək görüləcək hazırlıq işləridir. Xatırladaq ki, hazırda Babək rayonunda 22 meqavat, Kəngərli və Şərur rayonlarının hər birində 5 meqavat gücündə günəş, Culfa rayonunda isə külək elektrik stansiyası fəaliyyət göstərir.

İşçi qrupla aparılan müzakirələrdə də qeyd olundu ki, ötən dövrdə muxtar respublikada bərpaolunan enerji mənbələrində enerji istehsalının həcmi bəzi illərdə ənənəvi enerji istehsalının 60 faizinə bərabər olub. Bu da onun göstərir ki, Naxçıvanın çox böyük enerji potensialı var. Bunu da nəzərə alaq ki, artıq muxtar respublika uzun illərdir onunla qonşu olan ölkələrin energetika sisteminə inteqrasiya olunub, həmçinin bu ölkələrin ildən-ilə enerjiyə tələbatı artır.

Beləliklə, gələcəkdə muxtar respublikada enerji istehsalının həcminin artması ixrac üçün daha böyük imkan yaradır. Digər tərəfdən, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılması təbii iqlim şəraiti yaşıl enerji istehsalı üçün münasib olan Qərb bölgələrimizdə istehsal ediləcək elektrik enerjisinin muxtar respublika vasitəsilə ixracına yaşıl işıq yandırır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, Naxçıvan gələcəkdə həm də “yaşıl enerji” dəhlizinə çevriləcək.

**Naxçıvan Dövlət Universitetinin tibb fakültəsinin həkim, rezident və tələbələrinin iştirakı ilə akademik Zərifə Əliyeva adına Kəngərli rayon Şahtaxtı kənd tam orta məktəbində görkəmli oftalmoloq-alimin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş görüş keçirilib.**

# Akademik Zərifə Əliyeva adına məktəbdə görüş

Qonaqlar akademik Zərifə Əliyevanın adına məktəbin foyesindəki büstünün önünə gül dəstələri qoyub, bu kənddə dünyaya göz açmış alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olublar. Məktəbin konfrans salonunda müəllim və şagirdlərlə keçirilən görüşdə dünya şöhrətli akademikin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.



Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev Prezident İlham Əliyevin “Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2022-ci il 3 noyabr tarixli sərəncamı ilə bağlı ölkəmizin elm və təhsil müəssisələrində, səhiyyə sistemində görkəmli elm xadiminin yubileyinin geniş qeyd olunduğunu diqqətə çatdırıb. O bildirib ki, akademikin çoxcəhətli elmi-tibbi fəaliyyəti təkcə öz dövründə olduğu kimi, bu gün də nəzəri-təcrübi baxımdan önəmlidir və aktuallığını qoruyur.

Şahtaxtı kənd tam orta məktəbini direktoru Ehtimad Məmmədov, universitetin ümumi təbabət və klinik fənlər kafedrasının müdiri, dosent Gültəkin Əliyeva, həmin kafedranın müəllimi, tibb üzrə fəlsəfə doktoru Nüsrət Həsənov akademik Zərifə xanım Əliyevanın zəngin və şərəfli ömür yolundan, dünya şöhrətli alimin Azərbaycan tibb elminin inkişafındakı xidmətlərindən və oftalmologiya sahəsində qazandığı nailiyyətlərdən danışıblar.

Sonra tibb fakültəsi əməkdaşlarının müəllifi olduqları 20-yə yaxın kitab, dərslik, dərs vəsaiti, monoqrafiya, 50-yə qədər buklet məktəbin kitabxanasına hədiyyə edilib.

# Muxtar respublikada yeni təyinatlar

**Aprelin 12-də Niyazi Novruzov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsindən azad olunub. Samiq Sadıxov Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini təyin edilib və nazir vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti ona verilib.**



Bu barədə sərəncamları Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov imzalayıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov Samiq Sadıxovu kollektivə təqdim ediblər. Onlar Naxçıvanda səhiyyə sahəsində fəaliyyəti geniş təhlil edib, buraxılan nöqsanları göstərib, işin müasir dövrün tələblərinə uyğun yenidən təşkili barədə tapşırıq və tövsiyələrini bildiriblər.

***

**Bundan əvvəl isə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsul vəzifəsindən azad edilib, onun yerinə Hüseyn Bağırov təyin olunub.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və



Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov komitənin yeni sədri Hüseyn Bağırovu kollektivə təqdim ediblər. Keçirilən görüşdə Naxçıvanda statistika işinin aparılması və təşkili, təsərrüfatların qeydiyyatı, statistik hesabatların hazırlanması zamanı ötən illərdə buraxılan nöqsanlar diqqətə çatdırılıb.

# Ötən ay 754 obyekt qeydiyyata alınıb

**Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın qeydiyyatı və torpaqlardan istifadəyə dövlət nəzarəti mart ayı ərzində də diqqətdə saxlanılıb.**

Xidmətdən verilən məlumata görə, ay ərzində, ümumilikdə, 754 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 564 texniki sənəd hazırlanıb. Muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 50 daşınmaz əmlak obyektinə ünvan verilib. Həmçinin 93 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb, məhdudiyyət və yüklülüyə dair 422 arayış verilib.

Ötən ay xidmətə 158 müraciət qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib. Ay ərzində, həmçinin Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarının yaşayış məntəqələrində vətəndaşlara səyyar xidmət göstərilib.



# Qədim diyar tarixi turizm məkanıdır

**Son dövrlərdə turizm sənayesinin inkişaf etdirildiyi ölkələrdə diqqət yetirilən sahələrdən biri də tarixi məkan və abidələrin turist marşrutlarına daxil edilməsidir.**

Bu sahədə atılan addımların nəticəsidir ki, artıq bir sıra dünya ölkələrində beynəlxalq tarixi turizm konfransları təşkil olunur, turizmin inkişafında bu sahənin töhfəsi və çəkisi durmadan artır. Naxçıvan Muxtar Respublikası da bu turizm sahəsinin inkişaf etdirilməsi üçün mühüm potensiala malikdir. Naxçıvanın qədim yaşayış məskəni kimi minilliklərə gedib çıxan tarixininin turistlər üçün maraqlı obyekt və abidələrinə hər qarışında rast gəlmək olar. Aparılan arxeoloji təhlillər də bu qədim Azərbaycan diyarının zəngin tarixə və mədəniyyətə malik olmasını sübut edir.

**Qədim diyarda tarixi turizmin önəmli sahəsi sayılan arxeoloji tədqiqatların mühüm inkişaf yolu keçməsini bildirən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov qəzetimizə müsahibəsində bildirdi:**

–Turizm mütəxəssislərinə görə, insanlarda arxeoloji abidələrə maraq tədqiq olunduğu yerlərdə daha cəlbedici və maraqlı görünür. Arxeoloji turizmisə mədəni turizmin daxilində yer alan və insanların qədim dövrə, keçmişə marağından doğan istək əsasında formalaşan turizm növüdür. Əsas məqsəd arxeoloji qazıntılar zamanı tapılan mədəniyyət abidələrinin aşkar edildiyi ərazidə nümayiş etdirilməsidir.

Ötən əsrin 30-cu illərində Oğlanqala, Şahtaxtı, Şortəpə abidələrində, 1951–1964-cü illərdə isə I Kültəpə, Sədərək kəndindəki şəhər yerində, 1960–1969-cu illərdə II Kültəpə və digər abidələrdə arxeoloji tədqiqatlar aparılmışdır. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyionin hətriki dövründə digər sahələr kimi Azərbaycanda, eləcə də muxtar respublikada tarixi və memarlıq abidələrinin, xüsusilə arxeoloji araşdırmaların tədqiqinə daha diqqətlə yanaşılmışdır. 1981-ci ilin sentyabr ayında ulu öndərin təşəbbüsü ilə “Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında” Qərar qəbul edilmişdir.

Bu sənədin arxeologiya və etnoqrafiya elmlərinin inkişafında mühüm əhəmiyyəti olmuş, muxtar respublikamızın Qazma, Xaraba Gilan, Sumbatan, Haqqıxlıq, Şahtaxtı, Ovçular təpəsi, Xələc, Ərəbyengicə, Qızılburun, Damlama, Sarıdərə, I Maxta və digər abidələrində arxeoloji tədqiqatlar aparılmışdır. Müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə bu sahənin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. 2001–2002-ci illərdə ümummilli lider Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan–Gəmiqaya ekspedisiyası təşkil edilmiş, yeni qayaüstü təsvirlər və arxeoloji abidələr aşkar edilərək tədqiq olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı “Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam isə bu sahə ilə məşğul olan tədqiqatçıların qarşısında yeni vəzifələr qoymuşdur. Sərəncamdan sonra sistemli arxeoloji tədqiqatlara başlanılmış, Şahtaxtı, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala, I Maxta Kültəpəsi, Ərəbyengicə, Xələc, I Kültəpə, Meydantəpə, Qazma mağarası, Rəsul dərəsi və digər abidələrdə aparılan arxeoloji tədqiqatlar zamanı maddi və



mənəvi mədəniyyətimizlə bağlı maraqlı arxeoloji materiallar, mühüm elmi nəticələr əldə olunmuşdur.

Ovçular təpəsi, Oğlanqala, Duzdağ abidələrindəki arxeoloji qazıntılarda yerli mütəxəssislərlə yanaşı, ABŞ, Almaniya, Macarıstan, İsveç, İtaliya, Suriya, Türkiyə və Fransa arxeoloqları da iştirak etmişlər. Son illərdə isə Azərbaycan–Amerika Birləşmiş Ştatları və Azərbaycan–Fransa arxeoloji ekspedisiyalarının muxtar respublika ərazisində yerləşən Qız qalası yaşayış yeri, Qız qalası nekropolu, Ovçular təpəsi, Duzdağ, I Kültəpədə apardığı tədqiqatlar xüsusi əhəmiyyəti ilə seçilir.

**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev Cənubi Qafqaz və Yaxın Şərq arxeologiyasında böyük maraq doğurmuş Qız qalası yaşayış yerinin və tarixi turizm baxımından önəmini belə açıqladı:**

–Son illər bu qədim yaşayış yerinin ətrafında aparılan araşdırmalar zamanı Boyalı qablar mədəniyyətinin Naxçıvanla bağlı olmasına aid yeni faktlar aşkar olunub. Tədqiqatlar zamanı həndəsi ornament və heyvan rəsmləri ilə bəzədilmiş boyalı qabların aşkar olunması Naxçıvanın Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın digər regionlarına boyalı qabların məhz Naxçıvandan yayıldığını təsdiq edir.

Son illərdə aparılan araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir. Bununla yanaşı, aparılan araşdırmalarda Naxçıvanın erkən əkinçilik, Kür–Araz, boyalı qablar, şəhərsalma mədəniyyətlərinin əsas mərkəzlərindən biri olması öz təsdiqini tapır. Bütün bunlar isə muxtar respublikada arxeoloji turizmin inkişaf etdirilməsi üçün çox böyük potensialın olduğundan xəbər verir. Belə olan halda, niyə turizmin bu sahəsinin inkişafında maraqlı olmayaq.

Nəzərə alaq ki, arxeoloji turizmin inkişafı digər turizm növlərindən bir sıra xüsusiyyətləri ilə fərqlənir. Birinci onu nəzərə alaq ki, arxeoloji turizmə maraqlı olan turistlər, əsasən, intellektual, ziyalı turistlər olur. Belə turistlərin əksəriyyəti gördükləri, tanış olduqları ərazilərlə bağlı öz ölkələrində müəyyən məlumatlar və yaxud materiallar hazırlayıb yaymaqda maraqlı olurlar. Hətta bəzi ölkələrdə arxeologiyaya marağı olan müxtəlif peşə sahibləri öz məzuniyyətlərini arxeoloji qazıntı sahələrində keçirməyə üstünlük verirlər.

Bütün bunlar onu göstərir ki, əcnəbi turistlərin Naxçıvanda arxeoloji ərazilərlə, tarixi abidələrlə tanış olması həm də bu qədim diyarımızın təbliği baxımından əvəzolunmaz vasitədir. Necə deyərlər, insanlar tarixi faktları kitabdan oxumaqdansa, onu “yerində görməkdən” daha çox razı qalarlar.

*Səhifənin materiallarını “Xalq qəzeti”nin Naxçıvan müxbiri Səbuhi Həsənov hazırlayıb.*

# Yengicə su anbarı Azərbaycanın su təchizatına önəmli töhfədir



**Prezident İlham Əliyev "Yengicə su anbarının tikintisi haqqında" 12 aprel 2023-cü il tarixli sərəncam imzalayıb. Sənəddə son illərdə ölkəmizdə su ehtiyatlarından səmərəli istifadənin, həmçinin su təsərrüfatı obyektlərinin idarə olunmasının təkmilləşdirilməsi, müasir tələblərə cavab verən meliorasiya və su təsərrüfatı obyektlərinin qurulması, eləcə də bu sahədə uçot və nəzarətin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görüldüyü diqqətə çatdırılıb.**

*Ekspert rəyi*

**Məhəmməd ABDUYEV, ADPU-nun ümumi coğrafiya kafedrasının müdiri, coğrafiya elmləri doktoru:**



– Son illər müşahidə olunan qlobal iqlim dəyişiklikləri ilə əlaqədar olaraq temperaturun və buxarlanmanın artması, bütövlükdə, su ehtiyatlarının həcminə mənfi təsir göstərir. Bunun da nəticəsində su ehtiyatlarının üçdə iki hissəsinin transsərhəd çayları hesabına formalaşdığı Azərbaycan Respublikasında su çatışmazlığı ildən-ilə daha kəskin şəkildə hiss olunur. Su ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı müxtəlif ideyalar irəli sürülür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məlum sərəncamı əsasında Qəbələ rayonunun ərazisində tikiləcək Yengicə su anbarı qeyd edilən qabaqlayıcı tədbirlərin ən əhəmiyyətlisi kimi dəyərləndirilməlidir. Belə ki, yaxın vaxtlarda inşasına başlanılacaq Yengicə su anbarı Vəndamçayın aşağı axınının və Göyçayın qolu olan Qaraçayın su ehtiyatları hesabına qidalandırılmalıdır. Adları çəkilən çayların hər birinin çoxillik orta su sərfləri 2 kubmetr-saniyyəyə bərabərdir. Bu çaylar Göyçay vasitəsilə Kürə axıdılır. Buradan belə qənaətə gəlmək olar ki, həmin anbarın su ilə təchiz edilməsi nəticəsində Göyçaya gələn su ehtiyatının həcmi təqribən 4 kubmetr azalacaq. Nəticədə Göyçaydan Kürə daxil olan su axını 4 kubmetrədək azala bilər. Bu isə onsuz da axını az müşahidə edilən Kür çayında suyun həcminə təsir göstərə bilər. Amma, bununla belə, qeyd etmək lazımdır ki, inşası nəzərdə tutulmuş Yengicə anbarını su ilə qidalandıracaq çayların bol sulu vaxtlarının 20–25 faizi payız-qış aylarının payına düşür. Həmin aylarda isə çay suları, demək olar ki, istifadəsiz şəkildə axıb gedir. Payız-qış aylarında axının qarşısı kəsilərsə, yəni həmin suların anbarda yığılması, Kürün aşağı hissəsində su çatışmazlığına səbəb olmayacaq. Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, adları çəkilən çayların su ehtiyatlarının 40-45 faizi yeraltı sular hesabına formalaşır. Həmin ərazilərdə, yəni çayların hövzələrində yeraltı sular olduqca zəngindir. Bu da onu deməyə əsas verir ki, tikiləcək su anbarının ehtiyatlarının müəyyən hissəsi elə yeraltı sular hesabına formalaşacaq. Anbarda toplanacaq su ilin quraq dövründə, yəni vegetasiya müddətində əkin sahələrinin suvarılmasına əlavə imkanlar yaradacaq.

Bütövlükdə isə ölkə Prezidentinin bu istiqamətdə atdığı addımlar, imzaladığı sənədlər Azərbaycanın mövcud su ehtiyatlarından daha səmərəli istifadəsinin təkmilləşdirilməsinə səbəb olacaq.

Sərəncamda bununla yanaşı, son dövrlərdə nəzərə çarpan qlobal iqlim dəyişmələri, dünyada orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatının azalması, digər tərəfdən, suya tələbatın getdikcə güclənməsi məhdud su ehtiyatlarına malik ölkəmizdə su ehtiyatlarının artırılması və sudan səmərəli istifadə üçün təxirəsalınmaz tədbirlər görülməsini zəruri etdiyi vurğulanıb.

Bu istiqamətdə fəaliyyətin davamı olaraq, Prezident İlham Əliyevin 2020-ci il iyulun 27-də müvafiq sərəncamı ilə təsdiqlənən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulduğu kimi, Qəbələ rayonunun ərazisində Yengicə su anbarının tikintisi üzrə zəruri texniki-iqtisadi əsaslandırma və layihələndirmə işləri başa çatdırılıb.

Dövlətimizin başçısı "Yengicə su anbarının tikintisi haqqında" yeni sərəncamı ilə bütün bunları nəzərə alaraq, eyni zamanda, ölkədə su ehtiyatlarının artırılması, əkinəyararlı torpaqların genişləndirilməsi, habelə müasir təsərrüfatların yaradılması və əhalinin məşğulluğunun artırılmasının təşviqi üçün Qəbələdə adıçəkilən su anbarının tikilməsini qərara alıb.

Sənədlə Su Ehtiyatları Agentliyi, İqtisadiyyat, Ekologiya və təbii sərvətlər, Kənd təsərrüfatı, Fövqəladə hallar nazirlikləri, Qəbələ Rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət orqanlarna bu su anbarının tikintisindən irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görmək tapşırılıb. Eyni zamanda "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" dövlətimizin başçısının 2020-ci il 15 aprel tarixli sərəncamı ilə yaradılan müvafiq komissiya qarşısına qarşıdakı dövrdə icrası nəzərdə tutulun tədbirlərin əlaqələndirilməsi vəzifəsi qoyulub.

Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək istərdik. Belə ki, hazırda dünyada yaşanan iqlim dəyişikliyi, quraqlıq və şirin su çatışmazlığı Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmür. Suvarma mövsümü zamanı əkin sahələrini normal su ilə təmin etmək probleme çevrilir. Vəziyyətdən çıxış yolu əlavə su anbarları, dəryaçalar tikməkdir. Belə bir şəraitdə isə həmin su anbarları və dəryaçalara qışda, eləcə də erkən yazda su toplamaq mümkün olur. Ehtiyat su mənbələri qar, yağış, sel suları hesabına doldurulur və bütün yay mövsümü əkin sahələrinin suvarılması məqsədilə istifadə olunur.

Onu da qeyd edək ki, hazırda respublikamızda su ehtiyatlarından səmərəli istifadə ilə bağlı problemlər əsasən iqtisadi sahədə aparılacaq islahatlarla daha çox əlaqədardır. Kənd təsərrüfatında əkinçiliyin strukturunun su ehtiyatlarına uyğunlaşdırılmasına ciddi ehtiyac duyulur. Daha çox su tələb edən əkin sahələrinin miqdarının stimullaşdırılmasına da zəruri tələbat müşahidə olunur. O da unudulmamalıdır ki, belə bir şəraitdə suya az tələbatlı yeni sortlar əldə etməklə onların sahəsini artırmaq lazımdır. Su ehtiyatları ilə sudan istifadəçilər arasında münasibətlərin kökündən dəyişdirilməsi ilə müasir su idarəçiliyinin tətbiq edilməsi də vacibdir.

Mütəxəssislərin fikrincə, su qıtlığının daha ciddi narahatlıq doğurduğu indiki vaxtda tədricən Ümumi Daxili Məhsul istehsalında kənd təsərrüfatından fərqli olaraq daha az şirin su işlədən emaledici sənayenin, xüsusilə yüksək texnologiyaya əsaslanan sahələrin inkişafı vacibdir. Bunun üçün respublikamızda kifayət qədər intellektual baza var. Lakin bunların səmərəli şəkildə təşkili lazımdır. Bu sahədə qardaş Türkiyə Respublikasının son illər həyata keçirdiyi təcrübələrdən yararlanmaq faydalıdır. Məsələn, respublikamızda da "elm-bilik" mərkəzləri yaratmaqla bu işi sürətləndirmək olar.

Sonda yazının əvvəlinə qayıdaraq qeyd edək ki, mütəxəssislər tərəfindən Yengicə su anbarının ümumi sututumunun 17,5 milyon kubmetr, istifadə olunacaq həcminin isə 12,4 milyon kubmetr nəzərdə tutulduğu bildirilir.

Su anbarı tikildikdən sonra Qəbələnin aran hissəsində 10 min hektar əkin sahəsinin su təminatı yaxşılaşacaq. Bu isə həmin torpaqlarda məhsuldarlığı artırmaqla yanaşı, həm də ildə 2-3 dəfə əkin aparmağa imkan verəcək.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

## Bosniya və Herseqovina ilə iqtisadi əməkdaşlığın perspektivləri

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti Bosniya və Herseqovinaya səfər edib.**

İqtisadiyyat Nazirliyindən qəzetimizə bildirilib ki, Bosniya və Herseqovinanın Nazirlər Şurasının sədri xanım Boryana Krişto ilə görüşən Mikayıl Cabbarov Azərbaycanın bu ölkə ilə əlaqələrə önəm verdiyini, iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. Boryana Krişto isə Azərbaycanın etibarlı tərəfdaş olduğunu söyləyərək qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd edib.

Bosniya və Herseqovinanın xarici ticarət və iqtisadi əlaqələr naziri Staşa Koşaraçla görüşdə qarşılıqlı sərmayələrin və biznes dairələri arasında birbaşa təmasların artırılması barədə fikir mübadiləsi aparılıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun Bosniya və Herseqovina Federasiyasının Baş naziri Fadil Novaliç ilə görüşündə ölkələrimiz arasında iqtisadi münasibətlərin perspektivləri müzakirə edilib. Fadil Novaliç ölkəsinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, əlaqələrin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Bosniya və Herseqovinanın Serb Respublikasından olan nümayəndə heyəti ilə keçirilən görüşdə Azərbaycanla iqtisadi münasibətlərin prioritet istiqamətləri, investisiyaların və ticarət əlaqələrinin təşviqi sahəsində perspektivlər barədə fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatası ilə Bosniya və Herseqovinanın Xarici Ticarət Palatası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Bosniya və Herseqovina Xarici Ticarət Palatasının prezidenti Zdravko Marinkoviç imzalayıblar.

***"Xalq qəzeti"***

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) respublikamızdakı aktiv portfelinin həcmi ötən ilin sonuna 865 milyon avroya kimi (ödənilməmiş öhdəliklər daxil olmaqla) artıb. Bu rəqəm bank tərəfindən təqdim edilən əvvəlki göstərici ilə müqayisədə 3,5 faiz və ya 29 milyon avro çoxdur. İcra edilən aktiv layihələrin sayı isə 35 olub.**

## AYİB-nin investisiya portfeli yüksəlib




Bu barədə adıçəkilən AYİB-dən bildirilib. Qeyd olunub ki, portfelin 86 faizini (748 milyon avro) dayanıqlı infrastruktura yatırımlar, 10 faizini (87 milyon avro) sənaye, ticarət və aqrobiznes investisiyaları, 4 faizini (30 milyon avro) isə maliyyə institutlarına yatırımlar təşkil edir. Bankın ölkədəki əməliyyat aktivlərinin həcmi isə 0,5 faiz azalaraq 748 milyon avro təşkil edib.

Beləliklə, AYİB bu günədək Azərbaycana 188 layihə çərçivəsində 3,610 milyard avro həcmində investisiya yatırıb və sözügedən həcmin 86 faizi (3,106 milyard avro) borc götürənlər tərəfindən artıq mənimsənilib. Ümumi investisiyaların 13 faizi özəl sektorun payına düşüb.

**"Xalq qəzeti"**

## Mart ayında gündəlik neft hasilatı 632 min barrel olub

***Bu ilin mart ayında Azərbaycanda gündəlik neft (kondensatla birlikdə) hasilatı 632 min barrel olub.***

Energetika Nazirliyinin məlumatına görə, bunun 515 min barrelini xam neft, 117 min barrelini isə kondensat təşkil edib.

Qeyd edək ki, "OPEC plus" əməkdaşlığı çərçivəsində Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barrel, xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

**"Xalq qəzeti"**

# Ölkəmizin də bol şirin suyu olacaq

## *Söhbət dəniz suyunun duzsuzlaşdırılmasından gedir*



**Su canlı aləmin, həyatın başlanğıcı sayılır. Əbəs yerə deməyiblər ki, su olmayan yerdə həyat da yoxdur. Hazırda dünya əhalisinin hamısı bu əvəzsiz nemətdən, heç də, eyni dərəcədə istifadə edə bilmir. Təkcə onu demək kifayətdir ki, planetimizdə su ehtiyatları qeyri-bərabər paylandığından hər dörd şəhər sakinindən birinin təmiz suya çıxış imkanı məhduddur.**

Alimlər qarşıdakı illərdə qlobal su böhranının daha da kəskinləşəyi ilə bağlı həyəcan təbili çalmaqda davam edirlər. Mütəxəssislərin fikrincə, qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artımı, iqtisadiyyatın davamlı inkişafı ilə əlaqədar olaraq 30-50 ildən sonra içməli su ehtiyatları xeyli tükənəcək. Elə BMT-nin bu sahədəki son araşdırmalarının nəticələri də ürəkaçan deyil. Məhz buna görə də hazırda dünya alimləri bəşəriyyəti gözləyən təhlükədən xilas etməyin yollarını axtarırlar. Bu baxımdan dəniz suyunun şirinləşdirilməsi su qıtlığının aradan qaldırılması üçün ən ideal variant hesab olunur. Belə ki, mütəxəssislər hesab edirlər ki, alternativ su mənbələrinin işlənməsi, şirin suyun əvəzinə kifayət qədər bol olan yüksək minerallı dəniz, okean, yeraltı və s. sulardan istifadə bəşəriyyətin su problemini aradan qaldırmağa kömək edəcək. Hətta dünyanın inkişaf etmiş bir sıra ölkələrində dəniz suyunun şirinləşdirilməsi metodundan uğurla istifadə edilir.

Şirin su ehtiyatlarının məhdud olduğu Azərbaycanda da bu məsələ zaman-zaman gündəmə gətirilib. Hətta bu istiqamətdə müəyyən tədqiqatlar aparılıb, bir sıra işlər görülüb, ölkənin bəzi ərazilərində əks-osmos tipli suşirinləşdirici qurğular quraşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" 2023-cü il 12 aprel tarixli sərəncamı da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Prezident sərəncamına əsasən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli Sərəncamının icrası, ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçirilməsi qərara alınıb. Sərəncama əsasən pilot layihəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, eləcə də aidiyyəti dövlət qurumlarınabir sıra zəruri tədbirlər görülməsi tapşırılıb.

Eyni zamanda, yenicə yaradılmış Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq, istehsal edilən içməli suyun Bakı şəhərinə və ətraf ərazilərə nəqli ilə əlaqədar infrastruktur işlərinin görülməsi və sudan səmərəli istifadənin təmin edilməsi üçün tələb olunan vəsaitin Dövlət İnvestisiya Proqramında nəzərə alınmasına dair təkliflərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etməlidir.

Göründüyü kimi, ölkə Prezidenti İlham Əliyev əhalinin suya olan tələbatının ödənilməsini, həmişə olduğu kimi, yenə diqqət mərkəzində saxlayır. Dövlət başçısının alternativ su mənbələrinin işlənilməsi, o cümlədən dəniz suyunun şirinləşdirilməsi ilə bağlı imzaladığı sənədlər, bu sahədə qəbul olunmuş qərarlar ölkədə su qıtlığının aradan qaldırılmasına, əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsinə imkan yaradacaq.

**Mirbağır YAQUBZADƏ,**
**"Xalq qəzeti"**

*Ekspert rəyi*

**Əmir ƏLİYEV, Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun şöbə müdiri, coğrafiya elmləri doktoru, professor**



– Azərbaycan Respublikası Cənubi Qafqazın su ehtiyatları ilə ən az təmin olunan ölkəsidir. Belə ki, hazırda təqribən 31–32 kubkilometr səviyyəsində olan su ehtiyatlarımızın təqribən 70 faizi ölkə xaricində formalaşır. Hazırda respublikamızda bu əvəzsiz nemətə, xüsusən də içməli suya olan tələbat həddindən artıq çoxdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamı vaxtında atılmış bir addımdır. Dövlət başçımızın imzaladığı bu mühüm sənəd ölkəmizin suya olan tələbatının ödənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, dəniz suyundan səmərəli istifadə sahəsində potensial olduqca yüksəkdir. Bu baxımdan dəniz qonşumuz olan Qazaxıstanda real işlər də görülüb. Belə ki, Xəzərin şərq hissəsində yerləşən Manqışlaqda hələ ötən əsrin 60-cı illərində dəniz suyunun duzsuzlaşdırılması məqsədilə böyük bir zavod tikilib. Bunun da hesabına ətraf ərazilərdə yaşayan bir milyon əhalinin həm içməli, həm də təsərrüfatlarda işlədilən suya olan tələbatının xeyli hissəsi ödənilir. Artıq dünya miqyasında da bu sahədə müəyyən təcrübə əldə edilib. Məsələn, Fars körfəzi ölkələrində dəniz neft platformalarında çalışan işçilərin içməli suya olan tələbatı məhz mini qurğularda şirinləşdirilmiş dəniz suyu hesabına ödənilir.

Azərbaycanın ən böyük üstünlüklərindən biri Xəzər dənizinin sahilində yerləşməsidir. Xəzər dənizinin suyu digər dəniz və okeanların suyu ilə müqayisədə xeyli duzsuzdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Xəzərdə duzluluq səviyyəsi Hind okeanına nisbətən üç dəfə azdır. Belə ki, Xəzər suyunun bir litrində 12 qram, hətta sahilə yaxın ərazilərimizdə isə 10 qram olduğu halda, digər su məkanlarında, xüsusən də Hind okeanında bu göstərici 1litr üçün 40 qrama çatır. Bu səbəbdən də Xəzər dənizinin suyunun duzsuzlaşdırılması az enerjidən istifadə etmək hesabına başa gəldiyindən daha əlverişlidir.

Bütövlükdə isə, dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı bizdə artıq müəyyən praktikika var. Məlum olduğu kimi, 2013-cü ildə Ekologiya Nazirliyi tərəfindən Salyan rayonunun Xıdırlı kəndində İsrail texnologiyası əsasında belə bir zavod yaradılıb. 20 kilometr aralıda yerləşən həmin zavoda dəniz suyunun çatdırılması üçün xüsusi kanal inşa olunub. Həmin kanalla zavoda daxil olan su burada quraşdırılmış qurğularda duzsuzlaşdırılma prosesindən keçir. Bunun da nəticəsində müəssisədə sutka ərzində təqribən 50 min kubmetrə qədər su şirinləşdirilir.

Düşünürəm ki, Xəzərin sahilində, xüsusən də Bakı və Sumqayıt şəhərlərində belə zavodların tikilib istifadəyə verilməsi suya qənaət etməyə imkan yaradacaq. Yeri gəlmişkən, Xəzər dənizinin suyu təqribən 80 min kubkilometr təşkil edir. Ona görə də müasir texnologiyaların tətbiqi ilə həmin sudan istifadə edilməklə xeyli su ehtiyatı əldə etmək mümkündür.

*Türkiyə seçkilər qarşısında*

# Namizədlərin seçicilərlə görüşləri...

## *Gündəmdə suriyalı qaçqınlar problemi də var*

**Türkiyədə düz bir aydan sonra, mayın 14-də sandıq başına gələrək bu və digər namizədin lehinə, yaxud əleyhinə öz seçimini edəcək ölkə vətəndaşlarını indi ən çox narahat edən problemlərdən biri suriyalı qaçqınların taleyi, onların könüllü olaraq doğma yurdlarına qayıtması məsələsidir. Bu problem seçki kampaniyasında ən çox müzakirə olunan mövzulardandır.**



Təqribən 11–12 il əvvəlki illərə retro-baxış etsək görərik ki, Türkiyənin çevrəsində olan bir çox ölkələrdə 2011-ci ilin yazında bu gün çoxları tərəfindən heç də birmənalı qarşılanmayan "Ərəb baharı" prosesləri başlandı. Tezliklə bu hadisələr bir çox dövlətlərdə sivil dialoq məcrasından çıxaraq ağır vətəndaş qarşıdurmasına çevrildi.

Beləcə, okeanın o tayından sifarişlə başlanan "Ərəb baharı" gözləntiləri doğrultmadı, əksinə, Tunisdə, Misirdə, Liviya, Suriyada və s. ölkələrdə ciddi təlatümlər törətdi. Türkiyənin cənubunda yerləşən Suriyada rejimin qəddarlığı səbəbindən



bu gün də ağır vətəndaş müharibəsi davam edir.

Suriyanın yüzlərlə şəhər və kəndi xarabazara çevrildi. Ölkənin 23 milyondan çox əhalisinin, az qala, yarısı öz daimi yaşayış yerlərini tərk etməyə vadar oldu. Onlardan 5,7 milyonu isə Vətəni tərk edərək qonşu ölkələrə qaçdı. Suriyalı qaçqınların təqribən üçdə ikisi, yəni, 3,7 milyon nəfəri Türkiyənin Suriya ilə sərhəd bölgələrində məskunlaşıb.

Zülm, zorakılıqlar və əsarətdən qurtulmaq üçün küskün və ümidsiz bir vəziyyətdə Türkiyəyə pənah gətirən ailələrinə türklər dostcasına qucaq açdılar, onların normal qidalanmaları və təhlükəsiz şəraitdə yaşamaları üçün əllərindən gələni etdilər və bu gün də edirlər. Bu ağır problemin öz həllini nə vaxt tapacağı isə heç kimə məlum deyil.

Bu böyüklükdə qaçqın yükünü öz çiyninə götürməklə rəsmi Ankara düzmü edib, yoxsa səhvə yol verib? Bu sual ilk baxışda ritorik səslənir, amma görünən budur ki, Türkiyə dövləti və xalqı suriyalı qaçqın ailələri üçün mümkün olan hər bir şeyi etməklə, əsl fədakarlıq və humanizm nümayiş etdirib. Bu xeyirxah addımı, etiraf edək ki, dünyanın hazırkı qarışıq dönəmində çox az ölkələr nümayiş etdirməyə hazırdır.

Bu yerdə belə bir faktı xatırlatmağa ehtiyac var ki, hələ yeddi əsr əvvəl, 1490-cı illərin əvvəllərində İspaniyada dəhşətli inkvizisiya başlananda, orada yaşayan yəhudilərin var-dövlətlərini yağmalamağa, özlərini də fiziki olaraq məhv etməyə başlamışdılar. O dönəmdə yalnız Osmanlı imperatoru İldırım Bəyazid yəhudi xalqına sahib çıxaraq iki yüz minə yaxın qaçqını öz ölkəsinin ərazisində yerləşdirdi və onların burada sonrakı onillər və qərinələr boyu dinc və təhlükəsiz şəraitdə yaşamaları təmin edildi. Yeri gəlmişkən, yəhudi xalqı türklərin bu nəcib əməlini bu gün də dərin minnətdarlıq hissilə dilə gətirir.

Demək istəyirəm ki, Türkiyənin suriyalı qaçqınları himayə etməsi təqdir olunmağa layiq hadisədir. Zaman keçsə də suriyalılar bu xeyirxahlığı unutmayacaqlar. Lakin bu humanist addıma görə, hazırkı iqtidarı, Prezident Rəcəb Tayyib Ərdoğanı, təəssüf ki, həm ölkə daxilində, həm də xaricdə qınayan siyasi qüvvələr mövcuddur.

Son günlər keçirilən seçkiqabağı debatlarda ölkədə inflyasiya, bahalaşma, işsizlik və s. kəskin problemlərlə yanaşı, suriyalı qaçqınlar məsələsi tez-tez müzakirə və mübahisə predmetinə çevrilir. Müxalifətin əsas qüvvələrinin birləşdiyi "Millət İttifaqının nümayəndələri bu məsələyə neqativ aspektdən yanaşaraq, hazırkı hakimiyyəti xalqın gözündən salmağa cəhd edirlər.

Prezidentliyə namizədlərin də bir çoxu bu problem ətrafında spekulyasiya etməkdən çəkinmirlər. Məlumdur ki, Türkiyədə builki prezident seçkilərinə AKP-nin qurucusu və lideri, Prezident Rəcəb Tayyib Ərdoğanla yanaşı, ana müxalifət partiyası – CHP-nin rəhbəri Kamal Kılıçdaroğlu, bu yaxınlarda yaranan "Məmləkət" Partiyasının başçısı Məhərrəm İncə və Millətçi Hərəkat Partiyasının başqanı Sinan Oğan da qatılıblar. Onların hər biri seçkilərdə qələbə qazanmaq üçün bütün imkanlardan istifadə etməyə çalışırlar.

Yuxarıda adlarını çəkdiyimiz dörd partiyadan sonuncu iki partiya mühafizəkar sağçı, millətçi partiyalar hesab olunur. Onların rəhbərləri seçki kampaniyası zamanı suriyalı qaçqınlarla bağlı hökumətin ünvanına tez-tez iradlar səsləndirir, dolayısı ilə seçkilərin favoriti sayılan AKP liderinin başçılıq etdiyi hökumətin bu istiqamətdəki siyasətini tənqid etməyə çalışırlar. Hətta belə bir yanlış fikir formalaşdırılır ki, Türkiyə iqtidarı suriyalı qaçqınların bir qisminə vətəndaşlıq verməklə, ilk növbədə, onların səslərini qazanmağa cəhd edir.

Xatırladaq ki, bu cür iddialar 1918-ci ildə keçirilən prezident seçkilərində də irəli sürülmüşdü. O zaman iqtidarın bir çox yetkililəri, o cümlədən daxili işlər naziri Süleyman Soylu bildirmişdi ki, Suriyadan olan qaçqınların yalnız 50 mindən bir qədər çoxu vətəndaşlıq hüququ alaraq səsvermə hüququ qazanıblar. Təbii ki, belə bir kiçik göstərici 85 milyonluq Türkiyədə səsvermənin nəticələrinə ciddi təsir göstərə bilməz. Son beş ildə vətəndaşlıq və müvafiq olaraq səsvermə hüququ əldə edən qaçqınların sayında çox az artım qeydə alınıb.

Türkiyənin qaçqın probleminin həlli ilə bağlı rəsmi Ankara ilə Avropa İttifaqınıın (Aİ) rəhbərliyi arasında da ara-sıra narazılıqlar, fikir ayrılıqları yaranır. Belə ki, bir çox Aİ yetkililəri Türkiyənin Brüsselə təzyiq vasitəsi kimi, vaxtaşırı öz sərhədlərini açaraq suriyalı qaçqınların Avropaya kütləvi axın etmələrinə şərait yaratdığını bildirirlər. Lakin bunlar əsassız iddialardır. Reallıq budur ki, Aİ rəhbərliyi özü qaçqın problemi ilə bağlı Türkiyə hökuməti qarşısında götürdüyü öhdəliklərin çoxuna əməl etmir.

Xatırladaq ki, 2016-cı ildə Türkiyə ilə Aİ arasında əldə olunmuş razılaşmaya görə, Ankara öz ərazisi üzərindən Avropaya kütləvi miqrant axınının qarşısını almaq üçün sərhədlərində nəzarəti gücləndirməlidir. Aİ isə, öz növbəsində, qaçqın və miqrantları öz ərazisində yerləşdirmək müqabilində Türkiyəyə 6 milyard avro həcmində yardım söz veribdir.

Brüssel, həmçinin Türkiyənin Aİ üzvlüyü ilə bağlı danışıqları sürətləndirəcəyini və Türkiyə vətəndaşları üçün viza rejiminin yumşaldılacağını vəd edib. Lakin daha sonra Brüssel vizaların liberallaşdırılması üçün şərtlərin, guya, Türkiyə hökuməti tərəfindən tam yerinə yetirilmədiyini əsas gətirərək, əvvəlki sərt qaydaları dəyişməz saxlayıb.

Prezident R.T.Ərdoğan digər problemlərin həllində olduğu kimi, bu məsələdə də yüksək qətiyyət və prinsipiallıq nümayiş etdirir. Qərb dövlərlərinin rəsmiləri Türkiyə liderinin tamamilə haqlı olduğu ritorikasından narazı qalırlar, amma əvəzində tutarlı arqument də gətirə bilmirlər. Prezident R.T.Ərdoğan onlardan soruşur: necə olur ki, dünyanın yüksək inkişaf etmiş zəngin ölkələrində hər min nəfərə 2,7 nəfər miqrant düşdüyü halda, bu göstərici Türkiyədə qat-qat yüksəkdir?!

Türkiyə hökuməti Suriyanın İdlib vilayətində bu ölkədən olan qaçqınlar üçün yüz minlərlə mənzil inşa etməyi planlaşdırır. Artıq yetmiş minə yaxın suriyalı ailə hər cür şəraiti olan yeni mənzillərə köçüb. Bu yaxınlarda bu barədə xarici telekanalların birində reportaj yayımlanırdı. Həmin mənzillərin bir çoxunun divarlarından Prezident Rəcəb Tayyib Ərdoğanın fotosu asılmışdı.

Jurnalistin R.T.Ərdoğanın şəklini nişan verib "o kimdir?" sualına 12–13 yaşlarında ərəb qızı ürəkdən gülə-gülə təmiz türk dilində belə cavab verdi:

– Susqun dünyanın hürr səsidir o!

Fikrimcə, əlavə şərhə ehtiyac yoxdur!

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**

**Rusiya–Ukrayna cəbhəsində vəziyyət gərgin olaraq qalır. Müxtəlif istiqamətlərdə döyüşlər dünən də davam edib. Rusiya qoşunları səylərini, əsasən, Baxmut istiqamətində cəmləşdirsə də, hələ ki, ciddi uğurlara nail ola bilməyib. Rusiya ordusunun digər istiqamətlərdə də hərbi üstünlüyü görünmür. Amma hər iki ölkə bütün gücünü müharibədə qələbə qazanmağa yönəldib. Sülh haqqında isə söhbət belə getmir.**

# Sızdırılmış sənədlər Ukraynanın əks-hücumunu poza bilərmi?



Ukrayna və Rusiya arasında sülh danışıqlarına başlanması məsələsi son vaxtlar aparıcı dövlətlərin siyasi liderlərindən çox mətbuatın diqqətini cəlb edir. Siyasi liderlərdən yalnız Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kiyevlə Moskvanı sülhə gətirmək üçün var gücü ilə çalışır. Hazırda onun da başı ölkəsində keçiriləcək prezident və parlament seçkilərinə qarışıb. ABŞ və Avropa ölkələrinin liderləri isə hələ ki, yalnız Ukraynanı silahlandırmaqla, Kiyevin qələbəsini təmin etmək üçün mümkün olan hər şeyi etməklə məşğuldur.

Yalnız ayrı-ayrı ölkələrdə KİV sülh mövzusuna toxunur. Bu günlərdə "The Washington Post" qəzeti ABŞ kəşfiyyat agentliyinin məlumatlarına istinadən yazıb ki, 2023-cü ildə Rusiya və Ukrayna arasında sülh danışıqları gözlənilmir. Nəşrin özü də müəyyən araşdırmalardan sonra bu qənaətə gəlib ki, 2023-cü il ərzində nəzərdən keçirilən bütün ssenarilərə əsasən, münaqişəyə son qoymaq üçün danışıqların baş tutacağı ehtimalı çox azdır.

Son günlərdə ABŞ Müdafiə Nazirliyinin bir sıra digər ölkələrlə yanaşı, Rusiya və Ukrayna ilə bağlı hazırlamış olduğu məxfi sənədlərin mətbuata sızdırılması da dünyada böyük səs-küyə səbəb olub. Heyrətamizdir ki, Ukraynada qanlı döyüşlərin getdiyi bir vaxtda Kiyevin Vaşinqtondakı dostlarının müharibənin mümkün nəticələrləri ilə bağlı çox sarsıdıcı proqnozlar hazırladıqları məlum olub.

Dəhşətlidir ki, bu sənədlərdən hətta Qərbin diktəsi ilə Rusiyaya qarşı dağıdıcı müharibəyə qoşulmuş Ukrayna Prezidenti Volodimir Zelenski üçün də ölüm aqibəti nəzərdə tutulduğu aydın olur. Sızdırılmış sənədlərdən görünür ki, Amerika kəşfiyyatı Ukraynada münaqişənin inkişafı üçün gözlənilməz nəticələrlə bağlı dörd ssenari hazırlayıb. Bu ssenarilərdən birində lazım gələrsə, Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Volodimir Zelenskinin ölümünün mümkünlüyü qeyd olunur. Digər ssenarilərdə Ukrayna ordusunun Kremlə hücumu, eləcə də son vəziyyətə uyğun olaraq, lazım gəlsə, Ukrayna ordusu rəhbərliyinin istefaya göndərilməsi də nəzərdə tutulub.

"Nyu York Tayms" Pentaqonun sızdırılmış məxfi sənədlərinə istinadən bildirib ki, Ukraynanın Kremlə zərbə endirməsi ssenarisini nəzərə alan kəşfiyyat geniş spektrli potensial nəticələri proqnozlaşdırır. Belə ki, Rusiya genişmiqyaslı hərbi səfərbərliyə başlaya, taktiki nüvə silahından istifadəni nəzərdən keçirə və ya ictimai əhval-ruhiyyə Moskvanı sülh danışıqlarına başlamağa inandıra bilər.

Eyni zamanda təsvir edilən hər bir ssenari həm Rusiya ilə Ukrayna arasında münaqişənin kəskinləşməsinə, həm də onun danışıqlar yolu ilə dayandırılmasına gətirib çıxara bilər, yaxud, ümumiyyətlə, böhranın inkişafına ciddi təsir göstərə bilməz.

Sənəd fevralın 24-də münaqişənin başlamasından bir il sonra tərtib edilib və RELIDO kimi qeyd olunub, yəni, onun məzmununu açıqlamaq qərarı yüksək vəzifəli məmurların ixtiyarındadır.

Görünür, ABŞ-ın müdafiə naziri Lloyd Ostin ona görə bəyan edir ki, ABŞ səlahiyyətliləri məxfi sənədlərin sızması ilə bağlı təhqiqatı onların kim tərəfindən dərc etdirildiyini öyrənənə qədər davam etdirəcəklər. "Biz araşdırmanı davam edəcəyik, sənədləri kimin və hansı həcmdə sızdırdığını öyrənənə qədər də daşı daş üstündə qoymayacağıq", – deyə Ostin qeyd edib.

Pentaqon rəhbəri sızma ilə bağlı açıqlama verən ilk yüksək vəzifəli ABŞ rəsmisi olaraq bildirib ki, Müdafiə Nazirliyi sənədlərin fevralın 28-də və martın 1-də dərc edildiyindən xəbərdar olub, lakin bundan əvvəl internetdə başqa sənədlərin də dərc olunub-olunmaması barədə məlumatsızdır. "Araşdırma davam etdikcə, bunu da öyrənəcəyik", – deyə Ostin qeyd edib.

Hazırda müstəntiqlər ABŞ kəşfiyyatının məxfi materialını yaymaqda maraqlı olan şəxslərin adlarını müəyyənləşdirmək üzərində işləyirlər. Diplomat və RAND (Obyektiv Təhlil və Effektiv Həllər) şirkətinin elmi əməkdaşı Uilyam Kortni 100 səhifədən çox həcmi olan məxfi sənədlərin sızmasının Ukrayna Silahlı Qüvvələrinin gələcək əks-hücumuna necə təsir göstərə biləcəyi barədə danışaraq deyib: "Ciddi səviyyədə sızma baş verib. Çox sayda ətraflı məlumatlar ortaya çıxıb ki, bunlardan biri də Ukraynanın müdafiəsi ilə bağlı müxtəlif elementlərin struktur komponentləri ilə əlaqəlidir. Lakin aşkara çıxmayan məqam əks-hücum planının özüdür: onlar hara zərbə vuracaqlar, nə vaxt vuracaqlar?" – deyə Kortni vəziyyətlə bağlı açıqlama verib.

Təbii ki, sızdırılan məlumatlar Ukraynanın gələcək addımlarına zərər vermə gücündədir. Kiyev müharibənin hazırkı həssas məqamında, xüsusən, əks-hücum əməliyyatları ərəfəsində bu cür xəbərlərin sızmasından məmnun deyil. Ukrayna Prezidenti Ofisi rəhbərinin müşaviri Mixaylo Podolyak məhz buna görə bildirib ki, dərc edilmiş sənədlər həqiqəti əks etdirmir.

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

# Makronun pensiya islahatı Fransanı qarışdırıb

**Fransada Prezident Emmanuel Makronun irəli sürdüyü pensiya islahatına qarşı etiraz aksiyalarının yeni dalğası baş tutub. Dünən ölkənin bir sıra şəhərlərində sayca 12-ci etiraz nümayişi keçirilib. Məlumatı "Euronews" verib.**




Məlumata görə, ölkədə nəqliyyat, məktəblər və tullantıların yığılması sahələrində çalışanlar tətilləri davam etdiriblər. Şəhərlərarası və şəhərdaxili dəmir yolu nəqliyyatının hərəkətində problemlər yaranıb.

Nümayişlər ölkənin 270 şəhər və qəsəbəsində keçirilib. Etiraz aksiyalarında 600 minə yaxın insan iştirak edib. Aksiyaya "sarı jiletlər"in də qatıldığı bildirilir. 12-ci etiraz nümayişi ilə bağlı 11 500 polis və jandarm səfərbər olunub ki, onlardan 4200-ü Parisdə asayişi qorumaqla məşğul olub. Parisdə nümayişçilər Opera meydanından Bastiliya meydanına doğru irəliləyiblər. Aksiya polislə toqquşmasız ötüşməyib. Saxlanılanlar var.

Amma ölkədə Makronun pensiya islahatları heç də iqtisadçıların hamısı tərəfindən dəstəklənmir. Dünən Fransanın sabiq iqtisadiyyat və maliyyə naziri, Beynəlxalq Valyuta Fondunun (FMİ) sabiq prezidenti Dominik Stross-Kan Makronun pensiya sistemində islahat planında buraxdığı səhvləri tənqid edib. Onun fikrincə, planda dörd səhvə yol verilib və əgər bu səhvlər düzəlməsə, beşinci səhv daha ciddi nəticələrə gətirib çıxaracaq.

Stross-Kan özünün "Twitter" hesabında paylaşdığı "Beşinci səhv" adlı yazısında Fransanın acınacaqlı vəziyyətdə olduğunu bildirib. Onun sözlərinə görə, bu gün pensiya sisteminin maliyyələşdirilməsində islahatlar zəruridir, amma bu gün pensiya yaşı deyil, pensiya sistemi konsepsiyası dəyişdirilməlidir.

Sabiq BVF rəhbəri yazır: "Prezident Makron dörd səhvə yol verib. Fransa pensiya müddətinə əsaslanan sistem qurmaq üçün pensiya yaşına əsaslanan sistemi tərk etməlidir. Stross-Kanın fikrincə, Makronun pensiya islahatı çox pis vaxtda – fransızların bir çox başqa çətinliklərlə üzləşdiyi dönəmdə irəli sürülüb. Deməli, vaxt düzgün seçilməyib: "İllərdən bəri buraxılan ardıcıl səhvlərin ölkəni çıxılmaz vəziyyətə salması təəccüb doğurmur".

İqtisadçı pensiya islahatının vacib olduğunu etiraf edir, amma onu da bildirir ki, bu addım belə təcili atılmamalı idi. Başqa sıxıntılardan, xüsusilə də alıcılıq qabiliyyətinin aşağı düşməsindən, inflyasiyadan əziyyət çəkən fransızlara bu islahat daha bir ağır zərbə olub.

Sabiq BVF prezidenti ölkədə son zamanlar yaranmış sosial duruma diqqət çəkərək bəyan edib ki, keçirilmiş sorğular fransızların gündə bir dəfə yeməyi (üç dəfə deyil, iki dəfə yemək yeyirlər) təxirə salmaq məcburiyyətində qaldıqlarını göstərir. Onun fikrincə, hazırda düzəldilməli təcili vəziyyət budur: "Əlbəttə, qanunlar küçədə deyil, parlamentdə qəbul edilməlidir. Amma küçəni dinləmək, anlamaq da siyasi məsuliyyətin bir hissəsidir. Artıq birdən-birə kəsilən sosial dialoqun tellərini təzələmək üçün təşəbbüs göstərmək Prezidentin üzərinə düşür".

**"Xalq qəzeti"**

# Rusiyanın Norveçdəki 15 diplomatı "arzuolunmaz" elan edilib

**Norveç XİN Rusiyanın Oslodakı səfirliyinin 15 əməkdaşını "arzuolunmaz şəxs" elan edib. Məlumatı "Euronews" agentliyi yayıb.**



Agentliyin müxbiri Norveç XİN rəsmi saytına istinadən xəbər verib ki, bunu krallığın xarici işlər naziri Anniken Huitfeldt bildirib.

Norveçli nazir qeyd edib ki, haqqında sözügedən 15 nəfər öz diplomatik statuslarına uyğun olmayan kəşfiyyatçılıq fəaliyyətləri ilə məşğul olublar. Nazir sonra bildirib: "Norveç hökumətinin bu qərarı Avropada təhlükəsizliklə bağlı dəyişmiş vəziyyətə uyğun olaraq, Rusiyadan gələn kəşfiyyat təhlükəsinin artmasına qarşı cavabdır. Bu ciddi addım Norveçdə Rusiya kəşfiyyatının fəaliyyətinin qarşısının alınması və onun təhlükəsinin aradan qaldırılması, bununla da milli maraqlarımızın qorunması istiqamətində atılıb". XİN rəhbəri onu da qeyd edib ki, həmin şəxslər tezliklə Norveçi tərk etməlidirlər.

A.Huitfeldt onu da əlavə edib ki, Norveçə gəlmək istəyən Rusiya diplomatlarına viza verilməyəcək, çünki hazırda ölkəsi üçün ən böyük kəşfiyyat təhlükəsi Rusiyadır: "Biz rus kəşfiyyatçılarının Norveçdə diplomatik pərdə altında fəaliyyət göstərməsinə icazə verməyəcəyik", – o, deyib.

**"Xalq qəzeti"**

# FHN mülki müdafiə məşqi keçirib

**Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzi tərəfindən Sabirabad rayonunun hərbiləşdirilməmiş ərazi mülki müdafiə qüvvələri ilə xəbərdarlıq və toplanış üzrə nümunəvi məşq keçirilib.**



Məşqə FHN Muğan Regional Mərkəzinin aidiyyəti struktur bölmələri, Sabirabad Rayon İcra Hakimiyyətinin Mülki müdafiə qərargahının üzvləri, Mülki müdafiə xidmətləri və həmin xidmətlərdə yaradılmış ərazi Mülki müdafiə qüvvələrinin şəxsi heyəti və texnikaları cəlb olunub. Ümumilikdə, nümunəvi məşqə rayonda fəaliyyət göstərən 14 idarə, müəssisə və təşkilatdan 161 nəfər əməkdaş və 34 ədəd texnika cəlb edilib.

Tədbirin keçirilməsində məqsəd mülki müdafiəyə dair tədbirlər planlarının reallığa uyğunluğunun yoxlanılması, cəlb olunan şəxsi heyətin biliklərinin təkmilləşdirilməsi, qarşılıqlı fəaliyyətin təşkili və bu sahədə əməli vərdişlərin aşılanmasından ibarət olub.

Sonda nümunəvi məşqin təhlili aparılıb, çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tapşırıqlar verilib.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*



# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

*iki mərhələli*

# TENDER ELAN EDİR

Lot - 1. Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib Bəy Yusifbəyli küçələrinin kəsişməsində salınacaq yeni parkın layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması .

Bakı şəhəri, Nərimanov rayonu, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib Bəy Yusifbəyli küçələrinin kəsişməsində salınacaq yeni parkın layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması üçün iki mərhələli tenderdə iştirak etmək üçün iddiaçılar birinci mərhələnin yekununa qədər özlərinin hazırlamış olduqları eskiz layihəni iki nüsxədən ibarət albom şəklində, eyni zamanda elektron formada təqdim etməlidirlər. Birinci mərhələ üçün sifarişçi tərəfdən ərazinin topoqrafiyası və dron şəkilləri iddiaçılara veriləcəkdir. Bundan əlavə, iddiaçılara ərazi ilə tanış olmaq şəraiti yaradılacaqdır. Birinci mərhələ üçün iştirakçılara hazırladıqları eskiz layihələrə görə ödəniş verilməyəcəkdir. İddiaçıların müvafiq sahədə təcrübəsinin olması mütləqdir. Birinci mərhələnin yekununda təqdim olunmuş eskiz layihəyə komissiya üzvləri tərəfindən baxış keçiriləcək və yekunda komissiyanın müsbət rəyini almış azı 3 şirkət tenderin ikinci mərhələsində iştirak haqqı qazanacaqdır. İkinci mərhələdə iştirak edən iddiaçılar qiymət təklifi verərkən sözügedən parkla əlaqəli bütün hazırlayacaqları layihələrin dəyərini təqdim etməlidirlər (eskiz, memarlıq, kommunikasiya, konstruksiya, smeta və digər layihələr.)

İlkin mərhələ 3 aprel 2023-cü il saat 10.00-dan 2 may 2023-cü il saat 10.00-dək davam edəcək, 5 may 2023-cü ildə birinci mərhələnin nəticələri açıqlanacaqdır.

İkinci mərhələ üçün təkliflər 8 may 2023-cü il saat 11.00-dan 23 may 2023-cü il saat 11.00-dək qəbul olunacaqdır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır.

Əlaqələndirici şəxs – Əhməd Məmmədov, 496-52-05

Birinci mərhələdə iştirak edən iddiaçılar eskiz layihə ilə bərabər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayan-dırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;
- mənfəət vergisinin bəyannaməsi (2021-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə edildikdə notarial təsdiqli təqdim edilməlidir);
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri; - müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
- dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,- yaxud onların müvafiq peşə fəa-liyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış;
- mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olması barədə məlumat.

İkinci mərhələ üçün aşağıda qeyd olunan sənədlər tələb edilir:

- tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları əlaqələndirici şəxsə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il aprelin 27-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

*aşağıdakı kafedralarda seçki müddəti başa çatacaq vəzifələri tutmaq üçün*

# MÜSABİQƏ ELAN EDİR

**I. Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Nanomaterialların kimyəvi fizikası kafedrası | Kafedra müdiri | 1 |
| Diferensial və inteqral tənliklər kafedrası | Kafedra müdiri | 1 |
| Riyazi fizika tənlikləri kafedrası | Kafedra müdiri | 1 |
| Tətbiqi analizin riyazi üsulları kafedrası | Kafedra müdiri | 1 |
| Dünya ədəbiyyatı kafedrası | Kafedra müdiri | 1 |
| Alman və fransız dilləri kafedrası | Kafedra müdiri | 1 |
| Əmək və ekologiya hüququ kafedrası | Kafedra müdiri | 1 |
| Mülki proses və kommersiya hüququ kafedrası | Kafedra müdiri | 1 |
| Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | Kafedra müdiri | 1 |

**II. Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Zoologiya və fiziologiya kafedrası | Dosent | 2x1 |
| Molekulyar biologiya və biotexnologiyalar kaferası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>0,5 |
| Botanika və bitki fiziologiyası kafedrası | Dosent | 3x1 |
| Genetika kafedrası | Professor | 0,5 |
| Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası | Müəllim | 0,5 |
| İqtisadi və sosial coğrafiya kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Hidrometeorologiya kafedrası | Dosent | 0,5 |
| Fiziki coğrafiya kafedrası | Dosent<br>Baş müəllim | 2x1<br>1 |
| Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrası | Müəllim | 1 |
| Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrası | Dosent | 1 |
| Coğrafi ekologiya kafedrası | Dosent | 1 |
| Ekoloji kimya kafedrası | Professor | 1 |
| Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrası | Dosent | 2x1 |
| Yarımkeçiricilər fizikası kafedrası | Dosent | 1 |
| Optika və molekulyar fizika kafedrası | Dosent | 1 |
| Bərk cisimlər fizikası kafedrası | Dosent | 0,5 |
| Faydalı qazıntılar kafedrası | Dosent | 1 |
| Ümumi və tarixi geologiya kafedrası | Dosent<br>Baş müəllim | 1<br>0,5 |
| Kristalloqrafiya, mineralogiya və geokimya kafedrası | Baş müəllim | 1 |
| Seysmologiya və Yer təkinin fizikası kafedrası | Dosent | 0,5 |
| Analitik kimya kafedrası | Professor<br>Dosent<br>Dosent | 0,5<br>1<br>0,5 |
| Fiziki və kolloid kimya kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Neft kimyası və kimya texnologiyası kafedrası | Professor<br>Dosent | 0,5<br>1 |
| Ümumi və qeyri-üzvi kimya kafedrası | Professor<br>Baş müəllim | 1<br>1 |
| Üzvi kimya kafedrası | Dosent | 1 |
| Cəbr və həndəsə kafedrası | Professor | 1 |
| Hesablama riyaziyyatı kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrası | Professor<br>Dosent | 1<br>1 |
| Diferensial və inteqral tənliklər kafedrası | Baş müəllim | 1 |
| İqtisadi kibernetika kafedrası | Dosent | 1 |
| Tətbiqi analizin riyazi üsulları kafedrası | Dosent | 2x1 |
| Tətbiqi riyaziyyat kafedrası | Dosent | 1 |
| Əməliyyatlar tədqiqi və ehtimal nəzəriyyəsi kafedrası | Dosent | 1 |
| Optimallaşdırma və idarəetmə kafedrası | Professor | 0,5 |
| Beynəlxalq münasibətlər kafedrası | Dosent | 1 |
| Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası | Professor<br>Dosent<br>Dosent | 1<br>2x1<br>0,5 |
| Dünya iqtisadiyyatı kafedrası | Müəllim | 0,5 |
| Politologiya və sosiologiya kafedrası | Dosent | 3x1 |
| Azərbaycan dili və nitq mədəniyyəti kafedrası | Professor<br>Dosent<br>Müəllim | 0,5<br>2x1<br>1<br>0,5 |
| Türkologiya kafedrası | Professor | 0,5 |
| Dünya ədəbiyyatı kafedrası | Dosent | 1 |
| İngilis dili (humanitar fakültələr üzrə) kafedrası | Baş müəllim<br>Müəllim | 2x1<br>1 |
| İngilis dili (təbiət fakültələri üzrə) kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 3x1<br>6x1<br>2x1 |
| Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası | Dosent | 4x1 |
| Azərbaycan ədəbiyyatı tarixi kafedrası | Professor<br>Dosent | 1<br>1 |
| Rus dilçiliyi kafedrası | Baş müəllim | 1 |
| Rus ədəbiyyatı tarixi kafedrası | Dosent<br>Baş müəllim<br>Müəllim | 2x1<br>1<br>0,5 |
| Rus dili (humanitar fakültələr üzrə) kafedrası | Dosent<br>Baş müəllim | 2x1<br>1<br>0,5 |
| Rus dili (təbiət fakültələri üzrə) kafedrası | Baş müəllim | 2x1 |
| Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası | Dosent | 1 |
| Alman və fransız dilləri kafedrası | Dosent<br>Baş müəllim | 2x1<br>0,5<br>3x1 |
| "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası | Müəllim | 0,5 |
| Konstitusiya hüququ kafedrası | Professor<br>Baş müəllim | 1<br>1 |
| Əmək və ekologiya hüququ kafedrası | Professor | 1 |
| Cinayət hüququ və kriminologiya kafedrası | Dosent | 2x1 |
| Cinayət prosesi kafedrası | Professor<br>Dosent | 0,5<br>1 |
| Mülki proses və kommersiya hüququ kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrası | Dosent | 1 |
| Kitabşünaslıq və nəşriyyat işi kafedrası | Dosent | 0,5 |
| Kitabxanaşünaslıq kafedrası | Dosent | 0,5 |
| Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrası | Dosent<br>Müəllim | 1<br>0,5 |
| Psixologiya kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>1 |
| Pedaqogika kafedrası | Professor<br>Dosent<br>Baş müəllim | 1<br>1<br>1 |
| Fəlsəfə kafedrası | Dosent<br>Müəllim | 2x1<br>1 |
| Sosiologiya kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Dosent<br>Müəllim | 2x1<br>2x1 |
| Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Sosial iş kafedrası | Baş müəllim | 1 |
| İran filologiyası kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1<br>2x0,5 |
| Türk filologiyası kafedrası | Dosent | 1<br>2x0,5 |
| Ərəb filologiyası kafedrası | Professor<br>Dosent<br>Baş müəllim | 1<br>3x1<br>1 |
| Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Professor<br>Baş müəllim | 0,5<br>1 |
| Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | Baş müəllim | 1 |
| Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | Baş müəllim | 1 |
| Türk xalqları tarixi kafedrası | Müəllim | 0,5 |
| Arxeologiya və etnoqrafiya kafedrası | Müəllim | 1 |
| Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | Dosent | 2x1 |
| Asiya və Afrika ölkələrinin tarixi kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Slavyan ölkələri tarixi kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |

**Qeyd: Müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən 1 ay müddətində, 7 avqust 1996-cı il tarixli 401 saylı "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.**

**Ünvan-AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

# "Xalq qəzeti" – Nəsimi Bələdiyyəsi: 5 – 3

## Söhbət "Heydər Əliyev ili" münasibətilə keçirilən mini-futbol yarışından gedir



**Sağ olun, uşaqlar, siz fədakarlığınızla, prinsipiallığınızla, təəssübkeşliyinizlə, ən başlıcası, əsas məqsəd naminə birgə fəaliyyət göstərmək nümunənizlə futbolu mənə yenidən sevdirdiniz. Bundan əvvəlki oyun barədə qəzetimizdə geniş məlumat verildiyinə görə indi artıq bu yarışların məqsədi haqqında təfərrüata varmaq istəmirəm. Ancaq vurğulanmalıdır ki, qalib gəldiniz və tanınmış idman jurnalisti Oqtay Bayramovun proqnozlarının əlli faizini reallığa çevirdiniz.**



Yaşıma və səhhətimə görə bu oyuna azarkeşlik etmək üçün stadiona getməyə bilərdim. Ancaq söhbət ulu öndərimizin 100 illiyi münasibətilə keçirilən yarışdan getdiyinə görə mütləq orada olmalı idim. Oldum və gördüm ki, meydandakı komandaların hər ikisi bu yarışa ən ciddi, peşəkar heyətlər kimi məsuliyyətlə yanaşıblar.

Yeri gəlmişkən, "Bələdiyyəçilər" də qələbəyə layiq oyun göstərdilər. Etiraf etmək lazımdır ki, komandaların peşəkarlığı, demək olar ki, eyni səviyyədə idi. Ancaq bizim komandanın əzmkarlığı sübut edirdi ki, qalib gələcəyik və gəldik də.

Bu yarış həm də "Xalq qəzeti" redaksiyasında ötən ilin payızından bəri davam edən yeniləşmə və müasirləşmə proseslərinin, eləcə də mütəşəkkil fəaliyyət göstərmək üçün atılan addımların





nəticəsini göstərmək baxımından da vacib və önəmli idi. Bu dəfə redaksiyamızın təmsil olunduğu tədbirə ilk addımlarını atan "Xalq TV" də gəlmişdi. Oyunçularımız və bəzi azarkeşlər dedilər ki, yarışa öz televiziyamızın müşayiəti ilə gəlmək komandamız üçün düşərli oldu.

Nəsimi Bələdiyyəsi ilə keçirilən yarış bizə onu da göstərdi ki, ümumi məqsəd naminə birgə fəaliyyət göstərmək üçün hazırıq. "Oyunçularımızın" hamısı məhz komanda naminə çalışdığına görə ad çəkmək istəmirdim. Ancaq oyundan əvvəl, qızınma hərəkətləri zamanı "mənim qoruduğum" qapıya Rövşən Atakişiyev və Fuad Cəfərlinin vurduğu zərbələr ( onlardan cəmi birini qaytara bildim) sübut edirdi ki, biz qalib gələcəyik.

Baş redaktorumuzun, baş mühasibimizin və digər əməkdaşlarımızın həyəcanla izlədiyi oyunda texniki direktorumuzun, məsul katibin müavininin, "XalqTV"nin yaradıcısı və icraçısının da iştirak etməsi sübut edirdi ki, biz bir amal uğrunda çarpışanda güclü oluruq. Bu keyfiyyət bizim nəsillərə ulu öndər Heydər Əliyevin tövsiyələrindəndir. Komandamız sübut etdi ki, biz finala doğru qətiyyətlə addımlayacağıq.

Afərin sizə, "uşaqlar", əhsən! Mən gənclik illərimdə futbolu çox sevmişdim və müdafiəçi kimi oynamışdım. İndi Əvəz Rüstəmovun vurduğu ilk qoldan sonra fikirləşdim ki, kaş o vaxt hücumçu olaydım. Çünki bizim dünənki qələbəmizi məhz ilk qol təmin etdi.

Təkrar edirəm, bu oyunla siz futbolu mənə yenidən sevdirdiniz, həmkarlar. Uğur olsun!

**İttifaq MİRZƏBƏYLİ,**
**Elşən AĞALAR (foto),**
**"Xalq qəzeti"**

# Göyçayda yazlıq əkinlərə başlanılıb

**Göyçay rayonunda yazlıq əkinlərə başlanılıb. Ümumilikdə, 1030 hektar sahədə yazlıq əkini aparılıb, tərəvəz, kartof, o cümlədən 230 hektar istixana şəraitində yetişdirilən faraş tərəvəz yetişdirilməsi nəzərdə tutulub.**



Hazırda istixana şəraitində faraş tərəvəz, həmçinin kartof və bəzi tərəvəz bitkilərinin əkinlərinə başlanılıb.

Yazlıq əkinlərdən 140 hektar sahədə çəltik və 40 hektar sahədə dənlik qarğıdalı bitkisi əkilməsi planlaşdırılıb. Cari ildə yazlıq əkinlərin ümumi sahəsinin 2200 hektardan çox təşkil etməsi nəzərdə tutulub.

Məlumat üçün qeyd edək ki, cari ilin birinci rübündə 4813 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına dövlət dəstəyi olaraq ümumilikdə 2 milyon 349 min manat pul vəsaiti əkin subsidiyası olaraq onların kart hesabına köçürülüb.

**İlqar HƏSƏNOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

# Hamını razı salmaq mümkündürmü?

**"Başqaları haqqımda nə düşünür?" Çox güman ki, bu sualı özünüzə tez-tez verirsiniz. Elə isə gəlin cavabı birlikdə araşdıraq.**



Nə qədər çətin səslənsə də, başqalarının sizin haqqınızda nə düşündüyünü görməzlikdən gəlməyin bir neçə yolu var…

Davamlı olaraq başqalarının rəğbətini qazanmaq istəyiniz öz arzularınızı reallaşdırmağa mane olacaq. Bir çox insan sevilmək istəyir. Başqaları üçün öz xoşbəxtliyinizi qurban vermək nöqtəsinə gəlib çatmısınızsa, əsl problem elə budur. Bu problemlə mübarizə aparmaq istəyirsinizsə, başqalarının fikirlərinə məhəl qoymamağa və diqqətinizi özünüzə, işinizə və məqsədlərinizə yönəltməyə çalışın və bu yolla da davam edin.

Ətrafınızı nə qədər məmnun etməyə səy göstərsəniz də, həqiqət budur ki, hamını razı sala bilməyəcəksiniz. Sizi hər zaman qınayacaqlar. İşinizin öhdəsindən yetərincə gəldiyinizi düşünsəniz də, bunun əksini düşünən biri sözsüz ki, olacaq.

Haqqınızda mühakimə yürüdən insanlarla, əlbəttə ki, qarşılaşacaqsınız. Vəziyyət nə qədər xoşagəlməz olsa da, bunun heç bir əhəmiyyəti yoxdur. Əmin olun ki, ətrafınızdakı insanlar haqqınızda nəyisə şərh etdikləri üçün sizə heç nə olmayacaq. Bu sizin probleminiz deyil. Bunlar sadəcə ətrafınızda "uçuşan" fikirlərdir və heç bir şəkildə sizi əks etdirmir.

Onları bir pərgar kimi düşünün: bir yerə dayaq olurlar və sivri dillər hey fırlanır. Bununla da irəli getdiklərini düşünürlər. Amma hər zaman da eyni mərkəzə qayıdırlar. Əldə etdikləri sadəcə böyük bir dairə olur.

Sizin fərqli olmanızla ətrafınızdakı insanların öz mühakiməsinə görə dəyişməsini gözləyə bilməzsiniz, elə deyilmi? Elə buna görə də çox düşünməyi dayandırın. Həddindən artıq təhlil və çox düşünmək sizə sadəcə zərər verəcəkdir. Mənfi təfərrüatlarla məşğul olmaq əvəzinə, irəliləmək üçün fürsətlərə üz tutun. Başqalarının nə düşündüyü barədə narahat olmağa başlayan kimi dayanın, bunun mümkün olan ən pis "ssenari" olduğunu düşünün. Ətrafınız "rol ifa edərkən" siz özünüz olun.

Bəli, mövzunun əsl mahiyyəti bax elə budur. Özünüzə əsl mənliyinizi yaşamağa icazə verin. Sizi olduğunuz kimi sevən insanlarla addımladığınız zaman "başqası" olmaq məcburiyyətində olmayacaqsınız. Əziz oxucum, xoşbəxtliyinizi başqalarının düşüncələri üzərində qurmayın, yoxsa həyatınızın sonuna kimi ona, sadəcə, kənardan izləyici kimi baxmalı olacaqsınız.

İlk və son nəfəs arasında sığışdırdığımız və nə zaman bitəcəyi bəlli olmayan həyatımızı öz istəklərimizə görə yaşayaq…

**Səadət RZAYEVA,**
**"Xalq qəzeti"**

*Təqvim yada salır*

# "Titanik"in ilk və son səfəri




**Düz 111 il əvvəl aprelin 14-də gözlənilmədən nəhəng aysberqlə toqquşan "Titanik" gəmisi Atlantik okeanın dibinə enib. Bu ağır qəza dünyada dəniz sərnişin daşımaları tarixində ən böyük faciələrdən biridir.**

Qəza zamanı göyərtədə olan 2224 sərnişin və ekipaj üzvündən 1513-ü həlak olub.

1909-cu il martın 31-də Şimali İrlandiyanın paytaxtı olan Belfastda inşasına başlanılmış "Titanik" öz dövrünün ən nəhəng sərnişin gəmisi idi. 66 min ton ağırlığında olan bu gəmi 1911-ci ilin mayın 31-də istismara verilmişdi.

Gəmi ilk və son səfərinə isə 1912-ci il aprelin 10-da yola düşüb. Gəmi 4 gün sonra gecə 23:40 radələrində, Atlantik okeanının şimal hissəsindəki aysberqə toqquşub və 2 saat 40 dəqiqədən sonra isə tamamilə suyun dibinə çöküb.

Bu hadisə haqqında dəfələrlə kitablar yazılıb, filmlər çəkilib.

Bu filmlərdən biri də məşhur rejissor Ceyms Kemeronun 1997-ci ildə ərsəyə gətirdiyi məşhur "Titanik" filmidir. Kinematoqrafiya tarixinin ən gəlirli və unudulmaz filmlərindən olan "Titanik" filmi çəkildiyi ildən bu günədək 11 Oskar mükafatına layiq görülüb.

Real hadisə əsasında çəkilmiş bu əfsanəvi filmdə "Titanik"in səyahətə başlayıb batmasına qədər davam edən günlər təsvir edilib.

**Leyla HADİ,**
**tələbə-jurnalist**

# ABŞ süni intellekt sahəsinə qaydalar qoymağa hazırlaşır



**ABŞ Milli Telekommunikasiya və İnformasiya İdarəsi süni intellekt sistemləri üçün qaydalar müəyyən etməyə başlayıb. Rəsmilər süni intellekt yaradıcılarını məsuliyyətə cəlb edən mümkün qaydalar barədə ictimaiyyətdən yardım istəyiblər. Xəbəri "cnn.com" saytı verib.**

ABŞ vətəndaşları iyunun 10-dək öz fikirlərini sosial şəbəkələrdə "etibarlı süni intellekt" etiketi ilə bildirəcəklər. Əsasən təhlükəsiz süni intellekt üçün təşviqlər, sistemləri qiymətləndirmək üçün test üsulları kimi fikirlər önəmli olacaq.

ABŞ rəsmiləri "ChatGPT" kimi çatbotlarda qayda yaratmağı vacib hesab edirlər. Süni intellektin zərər vurduğu hadisələrin sayının getdikcə artdığı qeyd edilir. Qaydaların nəinki bu hadisələrin təkrarlanmasının qarşısını alacağı, həm də təhlükələrdən yaranan riskləri minimuma endirəcəyi düşünülür.

Qeyd edək ki, "ChatGPT" və oxşar süni intellekt modelləri məlumat sızması və müəllif hüquqlarının pozulması ilə xeyli sayda hadisəyə səbəb olub. İnsanlarda dezinformasiya və zərərli proqram kampaniyaları, dəqiqlik və qərəzlə bağlı əsas narahatlıqlar da var. Tərtibatçılar bu problemləri daha təkmil sistemlərlə həll etsələr də, tədqiqatçılar və texnoloji liderlər təhlükəsizliyi yaxşılaşdırmaq və etik sualları həll etmək üçün süni intellektin inkişafında fasilələr tələb etmək niyyətindədirlər.

**Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"**

# HAVA PROQNOZU

✓ *Aprelin 14-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənən cənub-qərb küləyi ilə əvəz olunacaq. Gecə 9-13°, gündüz 20-25° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Gecə 4-9° , gündüz 13-18° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 0-4°, gündüz 5-10° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, Gecə 0-5°, gündüz 7-12° isti, dağlıq ərazilərdə gecə 2°-dək şaxta, gündüz 2°-dək isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək.Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 4-8°, gündüz 14-19° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Səhər qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi rayonlarda arabir güclənəcək. Gecə 3-7°, gündüz 13-18°, dağlarda gecə 0-4°, gündüz 4-8° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi rayonlarda arabir güclənəcək. Gecə 6-11°, gündüz 16-21° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, dağlıq ərazilərdə arabir güclənəcək. Gecə 8-12°, gündüz 15-20°, dağlarda gecə və gündüz 6-9° isti olacaq.

*İdman xəbərləri*

## Üzgüçülər Macarıstanda mübarizəyə başlayıblar

***Yeniyetmə və gənc üzgüçülərimiz beynəlxalq turnirdə iştirak edəcəklər. Belə ki, Macarıstanın Şopron şəhərində üzgüçülük üzrə beynəlxalq turnir start götürüb. Azərbaycan Üzgüçülük Federasiyasının məlumatına görə, baş məşqçi Rəşad Əbdürrəhmanov yarışda 18 idmançıya şans verəcək.***



Qeyd edilir ki, aprelin 16-dək davam edəcək turnirdə Azərbaycanla yanaşı, Almaniya, Fransa, Macarıstan, Slovakiya və Xorvatiya təmsilçiləri də mübarizə aparırlar.

Baş məşqçi Rəşad Əbdürrəhmanov yarışla bağlı deyib: "Bu üzgüçülük üzrə çox mötəbər bir beynəlxalq turnirdir. Dünyanın su idman növlərinin ən inkişaf etmiş ölkələri sırasında Azərbaycan idmançılarının da belə bir geniş tərkibdə iştirak etməsi çox qürurvericidir. Bu idmançılarımız üçün böyük beynəlxalq təcrübə olacaq. Belə turnirlərdə üzgüçülərimizin, xüsusən də yeniyetmə üzgüçülərin öz güclərini sınamaları onların gələcəkdə güclü idmançı kimi yetişməsinə çox dəstək olur. Bizə bu yarışlarda iştirakına dəstək verdiyi üçün Gənclər və İdman Nazirliyinə, Azərbaycan Üzgüçülük Federasiyasına minnətdarlığımızı bildiririk".

## "Gəncə" Bakıda qələbə qazanıb

***Azərbaycan Basketbol Liqasında XXVI tura start verilib. Turun ilk matçında "Neftçi" və "Gəncə" komandaları üz-üzə gəliblər. "Sərhədçi" İdman Mərkəzində keçirilən görüş olduqca maraqlı alınıb.***

Belə ki, "Gəncə"nin əsas oyunçularından olan Cared Smol son saniyədə atdığı "üçlük"lə komandasına 87:86 hesablı qələbə qazandırıb. Bu nəticədən sonra xallarını 45-ə çatdıran komanda həm liderliyə yüksəlib, həm də "pley-off"a vəsiqəni təmin edib.

Ən məhsuldar basketbolçular "Neftçi"dən Mohsen Moradxani (23 xal, 8 ribaund), "Gəncə"dən isə Kollin



Törner (24 xal, 9 asist) olublar.

Turun digər "Sabah" – "NTD", "AAAF Xırdalan" – "Sərhədçi" və "Zirvə Astara" – "Olimpik Şəki" matçları aprelin 15-i və 16-da keçiriləcək.

**Elçin AĞAMİRZƏ,**
**"Xalq qəzeti"**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5008
SİFARİŞ 911
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00